

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?" deyənlərə...



8

SƏS

№ 191 (6874)

19 oktyabr 2023-cü il.

Qiymәti 60 qәpik

# Vətənə oğul borcu!



2

Prezident İlham Əliyev: "Qələbəni əldə edən əsgərdir, zabitdir"

# Avropanın erməni tələsi



5

## "Rusiyalı ekspert: "Azərbaycan münaqişəni birdəfəlik həll etdi, Rusiya da onu dəstəklədi"




15

## Ersin Tatar: "Biz Azərbaycandan böyük dəstək gördük"



3

## Əli Kərimli və Tofiq Yaqublu düşmən mövqeyində dayanmağa üstünlük verirlər



14

## DİQQƏT: Wi-Fi şəbəkə sistemi ləğv olunur?




16

## Günün mübarək, XUDAFƏRİN!



8

# Vətənə oğul borcu!

## Prezident İlham Əliyev: "Qələbəni əldə edən əsgərdir, zabitdir"

“Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var. O da odur ki, onlar canlarını fəda edərək tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq.” Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də ”Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib. Vətən torpağının azadlığı uğrunda can fəda edən mərd və cəsarətli oğulları ilə qürür duyur Azərbaycan. Müharibə başlayan ilk günlərdən Azərbaycan xalqının igid övladları düşməndən qisas almaq və 30 ilə yaxın işğal altında qalan əzəli torpaqlarımızın azad olunması məqsədi ilə silaha sarıldılar. Azərbaycan Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək şücaət, qəhrəmanlıq göstərdilər və Vətən torpaqları uğrunda vuruşdular. Cənab Prezident çıxışında vurğulayıb ki, işğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq: ”Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda, siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz nə qədər doğma diyara bağlıyıq.”







### AZƏRBAYCANDA YENİ ORDENLƏR VƏ MEDALLAR TƏSİS EDİLDİ

Bu gün vətən torpaqlarının azad olunmasında sağlamlığını itirənlər və şəhid olanların ailələri dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir və dəyərlidir. ”Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək”, - deyə Prezident çıxışlarının birində bildirmişdir. Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Müharibə ilə əlilliyi olan 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu ”2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsini həyata keçirib.

Müharibədə sağlamlığını itirmiş oğullar bütün varlıqları qədər bağlı olduqları Vətənin müqəddəsliyini dərk edərək vuruşmuş, qan tökmüş, şəhid və əlil olmuşdular. Qazilik və şəhidlik müqəddəs addır və onların hər biri müqəddəs yol seçərək bu mərtəbəyə yüksəlmişlər. 44 günlük Vətən müharibəsində torpaq uğurunda mücadiləyə qalxaraq, erməni işğalında olan torpaqlarımızın azad olunması yolunda od-alov içinə atılan mərd olullarımız düşmən gülləsi ilə üz-üzə qalanda yalnız ”Vətən” deyiblər. Azərbaycan Zəfər qazandıqdan sonra dövlətimizin şəhid ailələrinə, qazilərə hərtərəfli dəstəyi, onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilidi və bu davamlıdır. Cənab İlham Əliyevin müvafiq göstərişi ilə Azərbaycanda yeni ordenlər və medallar təsis edildi. Xalqımızın igidlik göstərmiş övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirlər. Xalqımızın igidlik göstərmiş övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirlər. ”Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm” - deyən Cənab İlham Əliyev müvafiq göstəriş vermişdi. Cənab Prezidentin göstərişi ilə Azərbaycanda yeni ordenlər və medallar təsis edildi. ”Zəfər”, ”Qarabağ” ordenləri, ”Cəsur döyüşçü”, ”Suqovuşanın azad olunmasına görə” medalı, ”Füzulinin azad olunmasına görə” medalı, ”Vətən müharibəsi iştirakçısı” medalı, ”Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” və s. Vətən müharibəsində torpaqlarımızın düşməndən alınmasında qəhrəmanlıq, şücaət göstərən şəxslər təltif olundular.

Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Şuşa, Kəlbəcər, Ağdam və digər şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edildilər.

Bu dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinin, fiziki sağlamlığını itirən qazilərin, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

### DÖVLƏTİN HUMANİST ADDIMI

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Bu il artıq 750, postmüharibə dövründə 5250, ümumilikdə ötən dövrdə 14050 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub. 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən ötən dövrdə 7500-dən çox avtomobil verilib. Bütün bunlar dövlətin diqqət və qayğısıdır. Müharibədən sonra bir dövlətin şəhid ailəsinə, qazisinə bu şəkildə yanaşması onun humanist addımıdır. Şəhid ailələrinə, əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımıza diqqət davamlıdır. Qəhrəman oğulları ilə fəxr edən dövlətimizin Mübariz İbrahimov, Podad Həşimov kimi oğulları bir qəhrəmanlıq dastanı yazdılar. Vətən qarşısında oğul borcu olaraq.

*Nəzakət ƏLƏDDİNQIZI*

# ”Moskovski komsomolets”: Prezident İlham Əliyev azərbaycanlıların bir neçə nəslinin ərazi bütövlüyünün bərpası ilə bağlı arzusunu gerçəkləşdirdi

**Heydər Əliyev İlham Əliyev haqqında deyirdi: ”Mən ona özüm kimi inanıram”. ”Moskovski komsomolets” nəşri İlham Əliyevin birinci müddətə Azərbaycan Prezidenti seçilməsinin 20 illiyinə həsr olunmuş məqaləni məhz bu başlıqla dərc edib. AZƏRTAC həmin məqaləni bəzi ixtisarlarla təqdim edir.**

Düz 20 il bundan əvvəl - 2003-cü oktyabrın 15-də Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Gənc lider İlham Əliyev atası - böyük siyasi xadim Heydər Əliyevdən estafeti qəbul edərək, iyirmi il ərzində ölkəni yeni inkişaf səviyyəsinə yüksəltdi. İlham [Əliyev] təkcə Heydər Əlirza oğlunun kursunu davam etdirmədi, həm də Azərbaycanın dövlət quruculuğuna yeni təkan verdi, sosial həyat səviyyəsini əhəmiyyətli dərəcədə artırdı, ölkə iqtisadiyyatını möhkəmləndirdi, dünyadakı imicinin möhkəmlənməsində əhəmiyyətli nəticələr əldə etdi, ən əsası isə azərbaycanlıların bir neçə nəslinin ərazi bütövlüyünün bərpası ilə bağlı arzusunu gerçəkləşdirdi.

2003-cü il oktyabrın 15-də Azərbaycanda prezident seçkiləri keçirildi, seçkinin nəticələrinə əsasən, İlham Əliyev seçicilərin 76 faizinin etimadını qazanaraq ölkənin başçısı oldu. Şübhəsiz ki, bu nəticələrə öz varisinə dəstək olmağa çağıran ölkənin əvvəlki lideri Heydər Əliyevin böyük nüfuzu kömək etdi.

İyirmi il ərzində İlham Heydər oğlu Azərbaycanın qüdrətli dövlətə çevriləcəyi və hər şeydən əvvəl Heydər Əliyevin siyasətinin davam etdiriləcəyi ilə bağlı andiçmə mərasimindəki çıxışının boş sözlər olmadığını sübuta yetirdi. Bu isə sabit inkişaf kursu deməkdir.

Ötən iki onillikdə Azərbaycan hakimiyyəti dövlətin inkişafında irəliləyişə nail olub. Səriştəli idarəetmə və nəzərdə tutulan strategiyaya dəqiq riayətetmə sayəsində Prezident İlham Əliyevin komandası ölkənin iqtisadi göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Bu gün Bakı bir sıra dövlətlər üçün etibarlı ticari-siyasi tərəfdaş kimi çıxış edir, Avropanın enerji təhlükəsizliyini təmin edir və iqtisadiyyatın şaxələndirilməsinə istiqamət götürür. Azərbaycanda əhalinin sayı və həyat keyfiyyəti ildən-ilə artır. Ölkə neftqaz sektorunu, müdafiə kompleksini, texnologiyaları, logistikanı, turizmi və digər sahələri fəal şəkildə inkişaf etdirir.




Prezident İlham Əliyevin son 20 ildə uğurlu kursu Azərbaycan əhalisinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verib.

Azərbaycan lideri ilkin olaraq ölkəsinin dövlət maraqlarının ardıcıl şəkildə müdafiə olunması strategiyasını seçib. Heydər Əliyev əbəs yerə qeyd etməyib ki, İlham [Əliyev] dünya siyasətində mahir insandır. Onun ”diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlarımız tam təmin olunmalıdır” tezisi dəqiq təyin edilmiş və aydın şəkildə ifadə edilmiş məqsədləri nəzərdə tuturdu, onun sayəsində Azərbaycan Cənubi Qafqazın regional liderinə və dünya arenasında inamlı oyunçuya çevrilib.

Azərbaycanın diplomatik strategiyasının unikallığı ondan ibarətdir ki, praktikada bütün dünyanın siyasi xadimlərinin danışmağı çox sevdikləri, lakin nail olunması çox çətin olan ”çoxvektorluq” prinsipini həyata keçirmək mümkün olur. Azərbaycan həm ABŞ, həm Türkiyə, həm də Rusiya ilə münasibətləri qoruyub saxlayaraq regionda geosiyasi maraqların optimal balansına nail ola bilir. Moskva Azərbaycanın bu mövqeyinə hörmətlə baxır.

Bu il Azərbaycan öz müstəqil dövlətinin yaranmasından bəri ən mühüm mərhələyə qədəm qoyub. Təxminən otuz ildir - Bişkek protokolunun imzalandığı 1994-cü ilin mayından bəri - ölkə itirilmiş əraziləri geri qaytarmaq ümidini itirmirdi. Nəhayət ərazi bütövlüyünün bərpası olan ən mürəkkəb vəzifə demək olar ki, yerinə yetirildi. Məsələ bütün ərazi ziddiyyətlərini birdəfəlik aradan qaldıran Azərbaycan ilə Ermənistan arasında Sülh sazişinin imzalanmasındadır.

2020-ci ilin kəskin fazasından sonra noyabr ayında üçtərəfli Bəyanat imzalanıb, bu Bəyanat Azərbaycanın yurisdiksiyası altında əvvəllər zorla alınmış yeddi rayonun (Qarabağ və ətraf yeddi rayon - red.) geri qaytarılmasına start verib. Bu ilin sentyabr ayında yerli antiterror tədbirləri zamanı respublikanın suverenliyi tam bərpa edilib. Beynəlxalq ictimaiyyət Azərbaycanın bu hərəkətləri öz ərazisində həyata keçirdiyini etiraf edib. Beləliklə, İlham Əliyev Avropa və Şərq tərəfdaşları ilə əzmkarlıq və zərgərlik diplomatik işi sayəsində milyonlarla azərbaycanlının çoxillik arzusunu reallaşdıra bilib. Artıq bu Dahi Lider kimi ölkə tarixinə düşmək üçün kifayət edərdi. Lakin bu hələ yolun sonu deyil. Qarşıda - yeni irəliləyişlər və nailiyyətlər var.

## “...Anti-Azərbaycan xarakterli bəyanat təəssüf doğurur”

Oktyabrın 18-də Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu bəyanat yayıb. SİA bəyanatı təqdim edir. ”İspaniya Senatının 17 oktyabr tarixli plenar iclasında qəbul etdiyi anti-Azərbaycan xarakterli bəyanat təəssüf doğurur. Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq, bu qərəzli və birtərəfli bəyanatı qətiyyətlə rədd edir və şiddətlə qınayırıq.

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam etmiş işğalına, 1 milyondan artıq soydaşımızın Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşərək, öz doğma torpaqlarından didərgin salınmasına, şəhərlərimizin, kəndlərimizin dağıdılmasına, tarixi, mədəni və dini abidələrimizin yerlə-yeksan edilməsinə bu illər ərzində bir dəfə də olsun münasibət bildirməmiş İspaniya Senatının indi həqiqətdən uzaq iddialarla ”ittihamçı” rolunda çıxış etməsi öz absurdluğu baxımından ciddi suallar doğurur.



İspaniya Senatının qəbul etdiyi bəyanatın mətni onun bölgədə mövcud olan reallıqlardan nə dərəcədə uzaq olduğunu, erməni lobbisinin dezinformasiyası üzərində qurulduğunu bariz şəkildə nümayiş etdirir.

İspaniya Senatına bəyan edirik ki, Azərbaycan dövlətinin həyata keçirdiyi antiterror tədbirləri məhz regional sülh, təhlükəsizlik və sabitlik qarşısında dayanan ən böyük maneəni - aqressiv separatizmi aradan qaldırdı. Bu gün Azərbaycan Hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində tədbirləri uğurla davam etdirir. Bölgəyə səfər etmiş BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları da bunu təsdiq edir.

Digər bir düşündürücü hal isə bundan ibarətdir ki, nə qədər paradoksal olsa da, separatizmdən əziyyət çəkən İspaniya dövlətinin Senatı belə bir bəyanatı qəbul etməklə, ərazi bütövlüyü və suverenlik kimi prinsiplərə hörmətsizlik nümayiş etdirir, aqressiv separatizmə tam şəkildə dəstək göstərməklə, regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində göstərilən səylərə mane olur. Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq, İspaniya Senatının bu bəyanatına qəti etirazımızı bildiririk”.

## Türkiyə Prezidenti Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycanı təbrik edib




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycanı təbrik edib. Prezident Ərdoğan X sosial media hesabındakı paylaşımında bildirib: ”Bu qürurlu gün münasibətilə qardaşım Prezident İlham Əliyevə və bütün Azərbaycan xalqına Türkiyənin salamlarını çatdırıram. Dünyada bənzəri olmayan bir qardaşlığa sahib olduğumuz Can Azərbaycanın Müstəqilliyinin Bərpası Gününü ən səmimi hisslərlə təbrik edirəm”.

## Ersin Tatar: ”Biz Azərbaycandan böyük dəstək gördük”



Azərbaycan Prezidentinin bizə verdiyi dəstək, onun çıxışları, Şimali Kipr həqiqətlərinin bütün dünyaya çatdırılmasında İlham Əliyev kimi dünya Liderinin verdiyi açıqlamalar bizim üçün çox vacibdir. Bizim yanımızda əlbəttə ki, ”Ana vətənimiz” adlandırdığımız Türkiyə, onun Prezidenti Rəcəb Tayyib Ərdoğan var. Lakin Prezident İlham Əliyevin də dünyada nüfuzu çox böyükdür, o, son 20 ildə Azərbaycana böyük uğurlar qazandırıb. Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar söyləyib. Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Kiprə dəstəyinin bütün dünya üçün təsirli olacağını vurğulayan E.Tatar qeyd edib: ”Çünki bizim buradakı görüşlərimiz Şimali Kipr türklərinin haqlarının müdafiəsinə böyük dəstək verir. Artıq bütün dünya düşünür ki, Türkiyə ilə bərabər, Azərbaycan da Şimali Kipr türklərinin yanındadır. Türk Dövlətləri Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında bizə dost olan çox ölkə var. Lakin Qərb dünyası bölgədəki yunanların təsiri ilə əlaqədar bizimlə əməkdaşlıq etməkdən çəkinir”.

”Qərbin bu həmrəyliyi tarixlərindən gəlir, ancaq bizim də həmrəyliyimiz yenə bizim tariximizə və mədəniyyətimizə söykənir”, - deyən Şimali Kipr Prezidenti bildirib ki, bu mənada Azərbaycan dövlətinin başçısı İlham Əliyevin bizi müdafiə etməsi bizim üçün çox vacibdir və dəyərlidir. ”Bizim bu səfərimiz tarixi səfərdir. Biz burada böyük dəstək gördük və bu dəstəyə görə Prezident İlham Əliyevə, həmçinin Azərbaycan xalqına minnətdarıq”, - deyə o, əlavə edib.



# Zəfər zirvəsindən 20 ilə baxış

## 15 OKTYABR 2003-CÜ İL - Xalq sözü imzası qədər dəyərli olan Liderə səs verməkdə yanılmayıb

Bu gün çox mühüm bir siyasi hadisələrin astanasındayıq. Dünyanın templi ictimai-siyasi həyatı xalqımız və dövlətçiliyimiz üçün böyük əhəmiyyət kəsb edən tarixi hadisə - 15 oktyabr 2003-cü il. Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Bu, ilk növbədə, xalqın müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevə olan inamının göstəricisi idi. Çünki dahi şəxsiyyət seçkilərdən öncə - 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün məyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz cənab İlham Əliyev uğurla davam etdirərək reallığa çevirə bilər: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək səsvermə hüququna malik olan vətəndaşların 71.5%-i Yeni Azərbaycan Partiyasının namizədi, partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev cənablarına səs verməklə bir daha xalqın düzgün seçim etdiyini təsdiqlədi. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76.84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

### BU GÜNÜN ZİRVƏSİNDƏN ÖTƏN 20 İLƏ - AZƏRBAYCANIN MİSİLSİZ UĞURLARINDA PREZİDENT İLHAM ƏLİYEV İMZASI

Bəli, bu günün zirvəsindən dönüb ötən 20 ilə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının canlı şahidi oluruq. Həmin dövrü Azərbaycanın yeni və parlaq inkişaf mərhələsi, Prezident İlham Əliyevin isə onun memarı adlandırılması üçün bütün əsasların olduğunu indi hamı birmənalı şəkildə etiraf edir. Çünki həyat sübuta yetirdi ki, Azərbaycan xalqı 2003-cü ildə tariximizin yeni mərhələsinin ən mühüm qərarını qəbul edərək, ölkəyə Heydər Əliyev miqyasında siyasətçidən sonra yeni lider və prezident seçərkən özünə xas müdrikliyinə əsaslanan yeganə düzgün seçimini edə bilmişdir. Bu yeni əsrin Qalib Lideri Prezident İlham Əliyev cənablarıdır.

Bəli, ulu öndərin başa çatdıra bilmədiyi taleyüklü məsələlər bu gün reallaşmaqdadır. 2003-cü ildən bu günə qədər Azərbaycan sürətli inkişaf dövrü yaşayır və ümummilli lider Heydər Əliyev siyasəti davam etdirilir. Və bu 20 il ərzində, ulu öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi.

Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. 5 ildə gördüyü işlər Onun 2008-ci il 15 oktyabr prezident seçkilərində 88,73 faiz səs qazanmasına imkan yaratdı. 2013 və 2018-ci il prezident seçkilərində də qələbəsini təkrarlaması hər bir vədini konkret əməli işdə təsdiqləməsi ilə şərtləndirdi. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Bəli, bu gün Azərbaycan dünyada güclü, qüdrətli ölkə olaraq hər bir sahədə sözünü deyir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılmaz mexanizmi yoxdur.

Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü ilə kimi hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb. Belə ki, ölkəmizin son üç ildə istər İkinci Qarabağ müharibəsi, istərsə də COVID-19 pandemiyası ilə mübarizə dövründə qazandığı uğurlar, atdığı addımlar ona olan etimadın daha da yüksəlməsini şərtləndirdi. atdığı addımlar ona olan etimadın daha da yüksəlməsini şərtləndirdi.

Ordu quruculuğu məsələlərinin dövlət siyasətinin prioriteti kimi müəyyən olunması illər sonra öz nəticəsini göstərdi və Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı.

### MƏĞRUR, YENİLMƏZ XALQ OLMAĞIMIZLA FƏXR EDİRİK

Bu gün Azərbaycan regional inkişafın aparıcı qüvvəsinə, dünya birliyinin fəal üzvünə çevrilib. Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür. İqtisadi müstəqillik Azərbaycanın siyasi müstəqilliyini şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyev 44 günlük müharibə dövründə xalqa müraciətlərində, eyni zamanda, 10 noyabr Zəfər tariximiz münasibətilə xalqa təbrikində Qələbəmizdə iqtisadi və siyasi müstəqilliyin rolunu da xüsusi qeyd etmişdir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyi, ən əsası Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi bazanın mövcudluğu Azərbaycan Ordusunun döyüş meydanında qələbəsinə yol açdı. Azərbaycan dünyaya sübut etdi ki, beynəlxalq hüququn norma və prinsipləri mövcuddur və onların icrası üçün vahid mexanizm olmalıdır. Bu Qələbə dünyanın yeni xarici siyasətinin formalaşmasında, yeni reallıqların yaradılmasında əhəmiyyətli rol oynadı.

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində "Yəqin ki, Qarabağı azad etmək rəhmətlik atanızın vəsiyyətidir. Vəsiyyətini də yeri gəlmişkən Sizdən öyrənmək istərdik. Vəsiyyətini hazırda həqiqətən yerinə yetirirsiniz. Sizi də, Azərbaycan xalqını da Türkiyə xalqı adından təbrik edirik. Atanızın vəsiyyəti barədə nə söyləmək istəyirsiniz" sualını belə cavablandırmışdır ki, hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm: "Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır. Təbii ki, dünya dəyişir. Dünyadakı güclər nisbəti də dəyişir. Bugünkü dünya 2003-cü ildəki dünya ilə əlbəttə ki, müqayisə edilə bilməz. Ancaq bizim strateji hədəflərimiz dəyişməz olaraq qalır. O da müstəqilliyi möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu saxlamaq, qorumaq və ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni, qısa desəm, atamın vəsiyyəti bundan ibarətdir."

### SON 20 İL - QALİBİN MƏĞLUB ÜZƏRİNDƏ QƏLƏBƏSİNİN QALİB LİDERİ İLHAM ƏLİYEV

Dövlətimizin başçısı həmişə bildirir ki, ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir. Buna görə də son 20 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız "bir qarış torpağımızı belə heç kəsə verən deyilik" xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!

Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan bu missiyanı da şərəflə yerinə yetirdi. Cənab İlham Əliyev daim bildirirdi ki, mən nəyi nə zaman etmək lazım olduğunu bilirəm. Ölkə Prezidenti bütün təzyiqlərə baxmayaraq qətiyyətli mövqeyindən bir addım da belə geri çəkilmədi, işğalçı Ermənistanın baş nazirinin irəli sürdüyü 7 şərtə cavab olaraq yalnız bir şərti qoydu ki, o da torpaqlarımızdan çıxmaları idi. 300-ə qədər yaşayış məntəqəsi, 5 şəhər, 4 qəsəbə, xeyli sayda strateji yüksəkliklər işğaldan azad edildikdən sonra diz çökən Ermənistan çıxılmaz vəziyyətdə qaldı. Ya tamamilə məhv olmalı idi, ya da Bəyanata imza atıb məğlubiyyətini etiraf etməli idi. Noyabrın 10-da imzalanan Bəyanat Azərbaycanın 30 ilə yaxın dövrdə gözlədiyi anın dünyaya təqdimatı oldu.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz son 20 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur.

Artıq Heydər Əliyev siyasətinin uğurları, ən əsası Ümummilli Liderin 1 oktyabr 2003-cü il müraciətində əksini tapan çağırışların aydın ifadəsi bugünkü reallıqlarımızdır. Bu gün artıq Dağlıq Qarabağ adlı ərazi vahidinin olmadığını böyük qürur hissi ilə qeyd edirik. Bu gün ölkəmizin həyatında yeni mərhələ - işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri uğurla davam edir. Qarabağımız cənnət məkana çevrilir. Torpaqlarımız sahibinə qayıtdıqları, biz də o torpaqlara qovuşduğumuz üçün qürurluyuq. Zəfərin mübarək, Azərbaycan! Zəfərin mübarək, Azərbaycan xalqı! Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtdir.

Beləliklə də, 2003-2023-cü il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi olmaqla Azərbaycan bundan sonra da növbəti illərdə də möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

*RƏFİQƏ KAMALQIZI*

# Avropanın erməni tələsi



**Avropa Parlamenti Ermənistanın baş təlxəyini ayaqüstə qarşıladı. Paşinyanın ermənicə çıxışını kimsə başa düşməsə də, onun tərcüməçiləri İrəvan kəndxudasını avropalılara demokrat, sözəbaxan, ağıllı oğlan kimi təqdim etməkdə əməllicə tər tökdülər. Nəticədə Avropanın deputat zümrəsi baş naziri alqışlamaqda xəsislik etmədilər. Nikolla görüşmək, onun kürəyinə əl vurmaq kimi saxta jestləri etməkdə də sanki yarışa girmişdilər. Bu səhnə bizə tanışdır, Zelenskinin timsalında...**

Rusiyanın Ukrayna ərazilərini "yeni regionlar" adı ilə öz xəritəsinə köçürməsini, apardığı qanlı və ədalətsiz müharibəni təşviq etmirik, ona haqq qazandırmırıq. Amma iki xalq arasında, səbəb və bəhanələr nə olursa olsun, nifaq salmaq, qanlı toqquşmaları təşkil etmək və günün birində hər ikisini dərdləri ilə baş-başa buraxıb bir kənara çəkilmək heç bir çərçivəyə, əndazəyə sığmır. Belə siyasət olmur. Moskva da, Kiyev də etiraf edər ki, bu müharibə onların sifarişi, istəyi, tələbi, arzusu ilə baş verməyib. Qərbin zəhrimara qalmış "demokratiya", inteqrasiya istəklərindən qaynaqlanır bu. Əvvəlcə, Donetsk və Luqanskda baş verən etnik toqquşmalar, sonra Maydan hadisələri, Qərbin rəngli inqilabı və sonra və daha sonra Beləliklə, iki qardaş xalq düşmənə çevrildi. Bəs sonra? Sonrası da maraqlıdır, Zelenski BMT-də, Vaşinqtonda, Konqresdə, Brüsseldə, NATO-nun sammitlərində qəhrəman kimi qarşılanır, Paşinyan kimi onun da kürəyinə əl çəkilir, "əla", "molodes" sədaları zalda əks-səda verir, Volodimir də Nikol kimi qımışır, irişir. Cəbhədə isə ölənlərin, itkin düşənlərin və ümumiyyətlə döyüş qabiliyyətini itirənlərin sayı milyonu ötür, Avropa, Amerika isə anbarlarında qalan və istifadəyə yararsız silahlarını kreditlə Ukraynaya satır. Fürsətdən istifadə edib xarici banklardakı yüz milyardlarla dollar Rusiya aktivlərinə əl qoyan da Qərb dairələridir. Yəni, konkretləşdirsək, müharibələrdə kimin qalib, kimin məğlub olması Qərbi qətiyyən maraqlandırmır, əsas odur ki, milyardlar qazansın, yeni bazarlar ələ keçirsin.





Qərb dünyanın ən zəngin ölkəsini - Rusiyanı ram etmək üçün iştahasını hər cür üsullarla artırır. Sanksiyalar, embarqolar, məhrumiyyətlər tətbiq etməklə Rusiya xammalının xaricə çıxışını ləngidir. ABŞ və Avropa resursları tükəndikcə yeni ərazilər ələ keçirmək niyyətlərini həyata keçirməyə bir az daha yaxın görünürlər. ABŞ Rusiyanın Avropa bazarındakı yerini doldurmaq üçün fürsəti qaçırmaq niyyətində deyil. Ukrayna marşrutunu dayandırmaq, kommunikasiya xəttlərini bloklamaq üçün ən optimal variant - müharibəni artıq dövrəyə qoşub, effekti də "pis" deyil. Yəni nəticə əldə etməyə çox yaxındır. Bəs Ukraynanın vəziyyəti necədir, Qərbin planı yeriyirmi? Ukrayna demokratiya yolunda iri addımlarla irəliləyirmi? Ukraynanın qonşularında vəziyyət necədir, rahat yata, miqrant əlindən sakit davrana bilirlərmi? Bütün bu sualların cavabı "YOX"dur. Ukrayna və Rusiya hərbi qərargahlarının hər gün məlumatı yayılır, mövqelərdə heç bir köklü dəyişkənlik olmasa da itkilər minlərlə ölçülür, hər iki tərəf müharibədən bezmiş, yorulmuş kimi görünür. Amerikanın Müharibə Araşdırmaları Mərkəzinin verdiyi məlumatlar isə insanları bir az daha bədbinləşdirir: müharibə hələ uzun müddət davam edəcək.

Bir az da Paşinyandan və Cənubi Qafqazı gözləyən fəlakətlərdən söhbət açaq. Bəli, Paşinyan avropalıların "uzaqdan komanda" idarəçiliyindən bezib şəh yuvasının ta mərkəzinə getdi. Canı cəhənnəmə, nə istəyir etsin, amma bizi narahat edən məsələlər var. Birinci Qarabağ münaqişəsinin başlandığı nöqtəyə qayıdaq. Məhz ABŞ prezidenti Reyqanın erməni lobbisi ilə qarşılıqlı sifarişi, Avropanın, daha dəqiq Fransanın təhriki, dəstəyi ilə Ermənistan-Azərbaycan müharibəsi alovlanmışdı. Qorbaçovun da sifarişin icraçıları arasında yeri xüsusi idi, Ermənistandan azərbaycanlıların qovulması, Sumqayıt hadisələri, 20 Yanvar faciəsi. Baş verən bütün bu hadisələrdə Rusiyanın adı çox hallanırdı. Azərbaycanın bütün vətəndaşları SSRİ rəhbərliyini, bir az sonra isə Rusiyanı Ermənistana hərtərəfli dəstək verməkdə günahlandırırdı. Bu, o vaxta qədər davam etdi ki, Azərbaycan hərbi gücünü artırmaqla bərabər, beynəlxalq arenada reallıqları qəbul etdirdi, Qarabağ həqiqətlərini çatdırdı, beynəlxalq münasibətlər sistemində haqq işimizin doğru olduğunu təsdiqlədi, dünya güclərini, sözün əsl mənasında "pat" vəziyyətinə saldı. Buna görə də 44 günlük müharibədə Ermənistan əvvəlki himayədarlarını yanında görmədi, tək qaldı. Nəticədə Azərbaycanın əks-hücumlarına 44 gün dözə bildi, 30 il mifləşdirdiyi ordusu tar-mar edildi, "keçilməz" sədləri bir anda dağıldı. Uduzdu, kapitulyasiya aktına imza atdı.

Bu gün Ermənistan Rusiyadan niyə imtina edir, üz döndərir? Çünki yeni himayədar axtarır ki, boynuna xalta taxsın, onu yeni torpaqlar ələ keçirməyə həvəsləndirsin, arxa dursun, öz çirkin xislətini davam etdirsin, işğal etdiyi torpaqları geri qaytarsın. Bəli, Paşinyanın Strasburqda meymunluq etməsinin əsl məqsədi də budur. Azərbaycanla sülh müqaviləsi bağlamaq istədiyini avropalılara çatdırıb, yəni mən sülhdən yanayam, amma Azərbaycan əksini düşünür, müharibəyə üstünlük verir. Halbuki, Azərbaycanın Ermənistana hələ 2021-ci ildə göndərdiyi 5 baza prinsiplərinə söykənən, bütün beynəlxalq standartlara tam cavab verən sülh müqaviləsindən Avropanın da, ABŞ-ın ən yüksən dairələrinin, hətta parlamentarilərinin, siyasətçilərinin, ən sadə vətəndaşlarının da xəbəri var idi. Bəs niyə Paşinyanın sülh barədə çərənləməsini yeni xəbər kimi qəbul edirlər? Yox, avropalılar kiminlə iş tutduqlarını çox yaxşı bilirlər. Ermənistana demokratiya tələsi qurmaqla, onun üzərində "kişilik" testi aparmaqla gələcək fəlakətlər hazırlayırlar. İrəvan hələ "duza gedir", onun olacaqları dərk etmək fürsəti yoxdur, eyforiya başını elə gicəlləndirib ki, burnunun ucundakıları görmür.

## Genişlənmənin yeni dalğası

Rusiyanın Ukrayna ərazisindəki xüsusi hərbi əməliyyatı Avropa Komissiyasının keçmiş rəhbəri Jan-Klod Yunkerin hələ 2014-cü ildə elan etdiyi Avropa İttifaqının genişlənməsi prosesindəki fasiləni dayandırıb. 2022-ci ilin iyununda Aİ rəhbərliyi Ukrayna və Moldovaya namizəd ölkə statusu verib, eyni zamanda Albaniya, Şimali Makedoniya, Monteneqro və Serbiyanın onilliklər boyu uzanan üzvlüyü prosesini başa çatdırmaq əzmini təsdiqləyib.

2004 və 2007-ci illərdə Aİ əhalisi və Birliyə daxil olan ölkələrin sayı baxımından öz tarixində ən böyük genişlənməni yaşadı. Bura Mərkəzi və Şərqi Avropanın 10 keçmiş kommunist ölkəsi və iki Aralıq dənizi ölkəsi aiddir. Yunkerin genişlənməyə qoyduğu moratorium, yeni Aİ üzvlərini "həzm etmək" üçün Avropa İttifaqını o zamankı 28 üzv dövlətdə konsolidasiya etmək məqsədi güdürdü. Post-kommunist ölkələrinin Aİ-yə üzvlüyünü Avropada sabitliyin və təhlükəsizliyin təmin edilməsi mexanizmi kimi qəbul edən Brüssel çox vaxt gələcək üzv dövlətlərə münasibətdə Kopenhagen meyarlarının barını qəsdən aşağı salmağa məcbur olurdu.

Ardı Səh. 6

# Avropanın erməni tələsi

Əvvəli Səh. 5

Bu, sonradan bir sıra problemlər yaratdı, əsas problem Avropa inteqrasiyasının gələcəyinə təhlükə yaradan millətçilik - Avroskeptisizmdir. Yeni çağırışlar Avropa İttifaqının gələcək əhatə dairəsi, eləcə də Avropaya inteqrasiya prosesi və stimulları və Aİ üzvlüyünə yeni namizədlərin avropalaşması ilə bağlı geniş, lakin çox gecikmiş müzakirələrə təkan verdi. İdeal olaraq, yeni genişlənmənin vaxtı ilə bağlı suala cavab vermək üçün Brüssel





Aİ-nin genişlənmiş tərkibdə necə fəaliyyət göstərəcəyi barədə aydın anlayışa malik olmalıdır.

Şübhəsiz ki, Aİ-nin genişlənməsi Avropaya inteqrasiyanın inkişafının tərkib hissəsidir. 1957-ci ildə yaradılan Avropa İqtisadi Birliyinin 6 üzvü var idi və Avropa İttifaqının hazırda 27 üzvü var və Qərbi Balkanlarda və Şərqi Avropada 6 yeni ölkəyə böyük bir yeni genişlənmə ərəfəsindədir. Aİ-nin genişlənməsi zərurəti yalnız Şarl de Qoll tərəfindən şübhə altına alındı, lakin o, Avropaya inteqrasiyanın dərinləşməsinin əleyhinə idi. Məhz de Qoll Böyük Britaniyanın üzvlüyünə, "Altılıq" tərəfindən qərarlar qəbul edərkən kvalifikasiyalı səs çoxluğuna keçidə və Avropa Komissiyasının səlahiyyətlərinin genişləndirilməsinə veto qoyub.

De Qollun Avropa siyasi səhnəsini tərk etməsi ilə əsas müzakirələr ilk növbədə Aİ-nin genişləndirilməsi və ya Avropa institutlarının dərinləşməsi ətrafında cərəyan edirdi. Böyük Britaniya əsas avroskeptik olaraq yalnız genişlənməyə, Fransa dərinləşməyə üstünlük verdi, Almaniya isə dərinləşmə və genişlənmə proseslərinin eyni vaxtda birləşməsində problemin "Süleyman həllini" tapdı. Sonuncu, bir çox avropalı analitiklərin etiraf etdiyi kimi, Aİ üçün qeyd-şərtsiz uğur sayıla bilməz, çünki obrazlı desək, həm dərinlikdə, həm də genişlikdə "qazmaq" həmişə mümkün olmayıb. Böyük Britaniyanın Aİ-dən çıxması ilə Aİ-nin genişlənmə gündəmində mahiyyətcə iki variant qalır: genişlənmədən əvvəl Avropa inteqrasiyasının dərinləşdirilməsi və köhnə alman yanaşması.

Ukrayna və Moldovaya Aİ üzvlüyünə namizəd kimi sürətli status təklif edən Avropa liderlərinin emosional impulsları tezliklə öz yerini qarşıdan gələn genişlənmə perspektivlərinə, xüsusən də mümkün problemlərin miqyasına daha ayıq və rasional yanaşmaya verdi. 2022-ci il iyunun 23-də Ukrayna və Moldovanın üzvlüyə namizədlər elan edildiyi Avropa Şurasının iclasından sonra Fransa prezidenti Emmanuel Makron "irəliyə getməyə ehtiyac" olduğunu desə də, "geosiyasi yanaşma" arasında ziddiyyət olduğunu dərhal etiraf etdi.

Fransa Prezidentinin təşəbbüsü ilə ötən ilin may ayında Avropa Günündə yeni təşəbbüs irəli sürülüb - 27 Avropa İttifaqına üzv dövlət və Ukrayna, Böyük Britaniya, Türkiyə kimi 17 qonşu ölkədən ibarət Avropa Siyasi Birliyinin (ASB) yaradılması. İsveçrə və Balkan dövlətləri. Makronun sözlərinə görə, ASB-in bəyan edilmiş məqsədləri Avropaya üzv dövlətlərə "təhlükəsizlik, enerji, nəqliyyat, investisiya, infrastruktur və insanların hərəkəti sahəsində siyasi əməkdaşlıq üçün yeni məkan" verməkdir.



Düzünü desək, Aİ hüdudlarından kənarda Avropa siyasi məkanının yaradılması ideyası yeni deyil. Çoxlu təşəbbüsləri yada salmaq olar - Fransua Mitteranın 1989-cu ildə Avropa Konfederasiyasının yaradılması təklifi, Avropa Qonşuluq Siyasəti, Rusiya və Aİ-nin dörd ümumi məkanın yaradılması ilə bağlı Sankt-Peterburq təşəbbüsü, Aralıq dənizi İttifaqı və s. ASB formatında bəyan edilmiş məqsədlərə gəlincə, avropalı ekspertlərin fikrincə, onlar hələ də tam dəqiqləşdirilməlidir. Bir tərəfdən, ASB Ukrayna münaqişəsində avropalıların birliyini nümayiş etdirməyə və Rusiyanın Avropadakı təsirini azaltmağa çalışır. Digər tərəfdən, ASB Avropa təhlükəsizliyi ilə bağlı fikir ayrılıqlarını nəzərə almadan namizəd ölkələr və Aİ-yə daxil olmayan digər ölkələrlə, xüsusən də Böyük Britaniya ilə əməkdaşlıq imkanlarını genişləndirməklə Aİ-nin qonşuları ilə münasibətlərini qurmağa çalışır. Aydındır ki, bütün Avropa ölkələrinin Rusiyaya münasibəti Brüssellə eyni deyil. Məsələn, Serbiya və Türkiyənin Moskva ilə sıx əlaqələri var, Macarıstanın isə öz əlaqələri var.

Bundan əlavə, namizəd ölkələr üçün bəyan edilmiş məqsədlərə baxmayaraq, ASB-nin onların Aİ-yə differensial inteqrasiyası üçün "gözləmə otağına" çevrilməsi riski mövcuddur. Uzun illər bu otaqda olan Qərbi Balkan dövlətləri və Türkiyə artıq ASB-nin Aİ üzvlüyünə alternativ olmadığını vurğulayırlar. Ukraynanın sürətləndirilmiş qəbulu üçün Avropa İttifaqı haqqında Müqavilənin (TEU) 42-7-ci maddəsinin qarşılıqlı müdafiə bəndi ilə bağlı problem də var, çünki Kiyev Moskva ilə münaqişədədir. Bəzi siyasətçilər və ekspertlər də etiraf edirlər ki, islah olunmamış Avropa İttifaqının qərar qəbuluna veto hüququ ilə genişlənməsi onu ümidsiz şəkildə parçalanmış vəziyyətə salacaq və qeyri-müəyyənlik və qeyri-sabitlik dövründə öz təhlükəsizliyini təmin edə bilməyəcək. Avropa İttifaqının akademik dairələrində AQS-nin yaradılmasını əsasən Makronun Fransanın Avropa siyasətinə və beynəlxalq diplomatiyaya təsirini gücləndirmək, həmçinin Angela Merkelin gedişindən sonra Fransa-Almaniya tandemində Parisin mövqeyini gücləndirmək cəhdi kimi qiymətləndirən ekspertlər var.

ASB-nin yaradılmasından bəri artıq üç görüş keçirilib: birincisi 6 oktyabr 2022-ci ildə Praqada, ikincisi 1 iyun 2023-cü ildə Kişinyovda, üçüncüsü isə oktyabrın 5-də Qranadada keçirilib. Oktyabrın 6-da Aİ-nin qeyri-rəsmi sammiti öncəsi Qranadada keçiriləcək ASB görüşünün birgə gündəliyinə növbəti bir neçə il üçün strateji məsələlər - miqrasiya, iqtisadiyyat və rəqabət qabiliyyəti, müdafiə, Qarabağ münaqişəsi və genişlənmə daxil idi. Qranadada hər hansı bir məsələdə irəliləyiş baş vermədi, bu, həm onların gündəliyinin həddən artıq yüklənməsi, həm də iştirakçıların heterogenliyi ilə əvvəlcədən müəyyən edilmişdi. Bu arada, həm ASB sammiti, həm də Aİ sammiti əvvəllər məlum olanı təsdiqlədi: Aİ-yə üzv dövlətlər arasında İttifaqın islahatı, xüsusən də kvalifikasiyalı səs çoxluğuna keçid məsələsi ilə bağlı barışmaz fikir ayrılıqları və yeni sazişə ehtiyac var.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin sözlərinə görə, Aİ sammitinin nailiyyətləri arasında Aİ-nin strateji gündəliyi (2024-2029) üzrə gələcək iş üçün mühüm başlanğıc nöqtəsi olan bəyannamənin qəbul edilməsi də var. Genişlənməyə gəlincə, bəyannamədə qeyd olunur ki, həm Aİ, həm də gələcək üzv dövlətlər buna hazır olmalıdır. İslahatlar həm namizəd ölkələr, həm də Avropa İttifaqının özünün daxili əsaslarını gücləndirmək üçün lazımdır. Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenin sözlərinə görə, Aİ-yə üzvlük prosesi nailiyyətlərə əsaslanır və burada qısa yollar, avtomatik üzvlük yoxdur.

Avropa İttifaqı rəhbərliyinin həmişə cavabsız qoyduğu əsas suallardan biri Aİ-nin gələcək sərhədləri ilə bağlıdır. Yenə də gec-tez Brüssel bu suala cavab verməli olacaq, çünki siz onun qapılarının və darvazalarının harada olacağını bilmədən ev tikə bilməzsiniz. Avropa İttifaqının keçmiş genişlənmə təcrübəsi göstərir ki, Avropa inteqrasiyasının inkişafında prioritet dövlətlərüstü institutların gücləndirilməsinə verilməlidir, çünki yalnız güclü dəstəkləyici strukturları olan bir ev yeni sakinləri təhlükəsiz şəkildə yerləşdirə bilər. Daha Ermənistan kimi marionet ölkələri yox.

**V.VƏLİYEV**

# Heydər Əliyevin həyat və fəaliyyəti gənclər üçün nümunədir

## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib






"Heydər Əliyev İli" çərçivəsində oktyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə partiyanın Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonlarından fəal gənclər iştirak ediblər. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub.



Lənkəran şəhər Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini söyləyən İqbal Əmənullayev dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacibliyindən danışıb.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədilik qazandığını vurğulayıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə yorulmaz fəaliyyət göstərərək qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanıb. Ölkəmizdə gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

YAP Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyeva vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının yeni nəslə çatdırılmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. O qeyd edib ki, Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib. Daha sonra gənclərin sualları cavablandırılıb.




# Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın qurucusudur

## Xocalı rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib




**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Xocalı rayon təşkilatı oktyabrın 18-də Goranboy rayon Aşağı Ağcakənd qəsəbəsində yerləşən Xocalı rayon Mədəniyyət Evində tədbir keçirib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev bildirib ki, Azərbaycan tarixinin bütün bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ümummilli Liderin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyev ideyaları əsasında inkişaf edən, qüdrətli və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Bunun nəticəsidir ki, bu gün Xankəndidə, Xocalıda və işğaldan azad olunan digər ərazilərimizdə üçrəngli Azərbaycan Bayrağı dalğalanır.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev bütün dövrlərdə xalqımıza və dövlətçiliyimizə ləyaqətlə, sədaqətlə xidmət edib. Heydər Əliyev həmişə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparıb. Ulu Öndərin dövlətimiz və xalqımız üçün göstərdiyi müstəsna xidmətlər Azərbaycanın dünyada söz və nüfuz sahibi olan ölkəyə çevrilməsində mühüm rol oynayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev söyləyib ki, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı: "Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir dövlətə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü əhatə edir. Ölkəmizdə dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi və dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi məhz Ümummilli Lider Heydər Əliyevin yorulmaz və səmərəli fəaliyyəti sayəsində mümkün olub.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov qeyd edib ki, Vətəninə, xalqına sədaqətlə xidmət etmiş Ulu Öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən müdrik dövlət xadimidir. Azərbaycan gənclərinin əsl vətəndaş kimi formalaşmasında Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Məhz Heydər Əliyev ideyaları ilə milli-mənəvi ruhda yetişən Azərbaycan gəncləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik torpaq həsrətinə son qoydu, tarixi zəfərlər əldə etdi. Bu gün Xocalıda Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

YAP fəalları Xəyyam Cəfərov və İlahə Kərimova çıxışlarında bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycanın dünyada güclü və nüfuzlu dövlətə çevrildiyini, Prezident İlham Əliyevin ölkəmizə möhtəşəm nailiyyətlər qazandırdığını diqqətə çatdırıblar. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara isə üzvlük vəsiqələri təqdim edilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**

2023-cü il oktyabr ayının 18-də YAP Ucar rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Ucar rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# “Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?” deyənlərə...



***2020-ci il noyabrın 10-da 44 günlük Vətən müharibəsi üçtərəfli bəyanatın imzalanması ilə başa çatanda, xalq Qarabağın işğaldan azad olunmasını toy-bayram edəndə bəzi qüvvələr ölkə başçısının rəhbərliyi altında milli ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı ilə əldə olunan Zəfəri ismin altı halının hər birində hallandırmaqla narazı qaldıqlarını bildirdi, böyük qələbəyə kölgə salmağa çalışdılar. Hansı ki, onlar hər zaman narazıdırlar. Razı qalacaqları gün nə vaxt olacaq, bu da məlum deyil.***

Zəfər günündən etibarən yeni mövzu atdılar meydana: bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran? Bunlar qaldı axı. Hansı Zəfərdən danışırsınız? Nə üçün müharibə yarımçıq dayandı? Bu necə müharibədir? Bu söz-söhbət o zaman danışılırdı ki, hələ Laçın, Kəlbəcər, Ağdam qarşıdakı mərhələdə qaytarılacaqdı. Və buna da həmin dairələrin nümayəndələri tərəfindən böyük inamsızlıq vardı.

Lakin düşməni 44 gün ərzində tamamilə çökdürmüşdük. Elə bu səbəbdən də ağ bayraq qaldırıb təslim olduğunu bildirmişdi. Laçın, Kəlbəcər və Ağdamın boşaldılması üçün vaxt istəmişdi. Azərbaycan dövləti isə bütün dünyaya humanistliyini nümayiş etdirərək qonşu düşmən dövlətə bütün bu olanlardan, yaşananlardan sonra yenə də insanpərvərliklə yanaşdı və onlara torpaqlarımızdan çıxmaq üçün zaman verdi.

Düşmən 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdi, torpaqlarımızı geri qaytardı. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun böyük bir hissəsi işğaldan azad edildi. Və həmin torpaqlarda dərhal bərpa işlərinə başlandı ki, 30 il yurd-yuvasından məcburi şəkildə köçkün düşən soydaşlarımız torpaqlarına qayıda bilsin, bir qərinəyə yaxın dövrün hicranının vüsal anı yetişsin.



## Cəhənnəmə gedən status-kvo

Bir məsələni-”status-kvo”nun cəhənnəmə getdiyini anlamaq bu qədərmi çətin idi, yoxsa buna inamsızlıqdan doğurdu həmin söz-söhbət? Axı ”Dağlıq Qarabağ Muxtar Vilayəti” artıq yox idi, dövlətimizin başçısı bunu ləğv etmişdi. Deməli, bu pərdə arxasında gizlənənlərin xülyaları da darmadağın edilmişdi. Qalırdı bircə onların Azərbaycan qanunlarına tabe olmaları-Azərbaycan torpaqlarında bu qanunlar çərçivəsində yaşamaları. Buna isə təbii ki, torpaqlarımızı qurd kimi basmış separatçı-terror qruplaşmaları imkan vermirdi. Onlar yeni münaqişələr yaratmaqla bizim torpağımızda at oynatmaq meyilində idilər.

3 il idi ki, müharibə bitsə də, problemlər davam edirdi: minalanmış ərazilərin xəritəsi verilmirdi, atəşkəs pozulurdu, Qarabağ və Şərqi Zəngəzurda tez-tez terror hadisələri törədilirdi. Bu hadisələrə isə içimizdən olan bəzi ünsürlər yenə də rəngarəng don geyindirir, hələ üstəlik, ermənilərin tərəfində dayanaraq onların nahaq səsinə səs verirdilər.

Bir tərəfdən də Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgərana guya ki, canıyananlıq edirdilər. Anlamaq istəmirdilər ki, bu torpaqlar da azad edilən torpaqların sırasındadır. Sadəcə zaman çatmalıdır ki, o yurdlara da bayrağımız sancılsın.

Necə ki, ötən 30 ilə qədər dövrə son qoymağın məqamı yetişmişdi, biz torpaqlarımızı azad etmək üçün hazır olduğumuzu hiss edib müharibə meydanına atılmışdıq, 44 gündə Qarabağın dastanını yazmışdıq, eləcə də zamanın yetişməsi, hadisələrin öz axarı ilə cərəyan etməsi lazım idi ki, bu torpaqlarda da bayrağımız dalğalansın. Lakin bunu anlamayan, bütün bunları hər gün müzakirə edib don geyindirənlər sakitləşmək bilmirdi. Barmaqla sayılacaq qədər olanların hər biri siyasətçiyə, siyasi eksperte çevrilmişdi. Ağıllarına və ağızlarına gələni danışmaqla guya özlərini xalqa ürəyi yanan kimi qələmə verirdilər. Lakin xalqın onların kim olduğunu əsla unutmayacağını nə üçün yadlarından çıxarmışdılar, bunu da anlamaq bir qədər çətin idi. Bəlkə də bu kimi sayıqlamaları ilə xalqın üreyini yenidən qazanmaq fikrinə düşmüşdülər, bu da anlaşılmayan bir məsələ idi.

Dövlətimizin başçısı nəyi nə zaman və necə etməyi özünün də vurğuladığı kimi, çox gözəl bilir. Elə bu yüksək bacarığa görə də Azərbaycan xalqı ötən üç il ərzində son 300 illik tarixdə olmayanı edə, qazana bildi: torpağını azad etdi, düşməndən geri aldı.



# Günün mübarək, XUDAFƏRİN!

MƏTANƏT

**2020-ci ilin 18 oktyabrında - Müstəqilliyin Bərpası Günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı. Azadlığın, növrağın mübarək, Xudafərin, dedik. Nə gözəl tarix yazıldı aşırımlarına. Sən axı 1991-ci ildə bərpa etdiyimiz müstəqilliyi doyunca yaşamamışdın. Üçrəngli bayrağın üstündə bərqərar olduğun Arazın sularındakı əksini ətrafındakı zirvəsi səmaya söykənən dağlara, sıldırım qayalara yaya bilməmişdin.**

Bayrağın mübarək, azadlığın mübarək, Xudafərin, dedik. Sən Allaha səni yaratdığı üçün təşəkkür edirsən, əsrlərdir. Biz azərbaycanlılar da Allaha səni bizə yenidən qovuşdurduğu üçün minnətdarıq, ey ulu yurdumuz, müqəddəs torpağımız Cəbrayılın göz bəbəyi...

Azərbaycan tarixinin möhtəşəm abidəsi, Azərbaycan memarlıq sənətinin zirvəsi Xudafərin... Tarixin yol yoldaşı, sinəsində Şəddadilərin, Rəvvadilərin, Elxanilərin, Qaraqoyunluların, Ağqoyunluların, Eldəgizlərin, Səfəvilərin, Teymurilərin, Qacarların izi olan- keçmişin şahidi Xudafərin. Nə çox xoş günlərə-toylara, düyünlərə, çal-çağırlara, nə müharibələrə-ordulara-qoşunlara, silahlara-süngərlərə sinə açan Xudafərin. Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən yeganə vasitə. Tarixi İpək yolunun üzərində yerləşməklə Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olan daş əzəmətli, daş dözümlü körpü...

1993-cü ildə Cəbrayıl nankor ermənilər tərəfindən işğal olundu. Düz 27 il sinən doğma addımlardan məhrum qaldı. Nə yaxşı ki, Araz varmış... Gecə-gündüz tək Arazla pıçıldaşdın, Xudafərin. Dərdini dedin, sərini dedin, gözyaşını Arazın sularına qarışdırdın. Kənardan baxanlar səni-Xudafərini daş abidə görürdü, Arazı su. Lakin nə Xudafərin daşdı, nə də Arazdakı su idi. Xudafərin həsrətliydi, Araz onun göz yaşıydı...

Xudafərin, ”Xuda-Afərin”, yəni ”Allaha mərhəba”dır adının mənası. Allahın yaratdığı yer olduğun üçün, adın sənin Allaha mərhəban, təşəkkür payındır. Dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan səni ”Allah tərəfindən yaradılan” da adlandırırlar. Həm də bu dayaqlar tək sənə-11 aşırımlı, 130 metr uzunluqda, 6 metr enində, 12 metr hündürlükdə olan Baş Xudafərində deyil, gözəl Cəbrayılın, füsunkar Arazın sənə yaxın ərazisində 15 aşırımlı, uzunluğu 200, eni 4,5, hündürlüyü isə 10 metr olan Xudafərinə də aiddir. Sizin hər ikinizin yaranmasının böyük səbəbi Ulu Yaradanın yaratdığı coğrafiyanın uyğunluğudur. Hər aşırımınız tarixin bir dönəmidir. Zamanın keşməkeşlərində dağıdılmağa məruz qalsanız da, heç şübhəsiz ki, Ulu Yaradanın özü sizi qoruyub. İşğalda olan digər ərazilərimizdə ermənilərin daşı daş üstə qoymaması sizə də çoxdan təsir etmiş olardı. Lakin yenə də sizi Allah qoruduğu üçün gücləri çatmayıb. Düzdür, əvvəllər gördüyümüz gözəlliyinə xələl gəlib bir az, uçulmusan, sökülmüsən, bu da yəqin nisgilindən, həsrətindən olubdur, axıtdığın göz yaşları daşlarını əridibdir. Qəm eləmə, Xudafərin. Səni yağıdan alan rəhbər, eloğlular sənə yeni həyatı da verməkdədir.

Xudafərin, Milli Ordumuzun üzərində qaldırdığı bayrağın dalğaları Arazın suyunda Ulu Öndərimiz Heydər Əliyevin ”Azərbaycan müstəqil dövlətdir və birinci növbədə ərazi bütövlüyümüzü təmin etməliyik. Müstəqil dövlət öz ərazisinin sahibi olmalıdır” tövsiyələrini əks etdirirdi. Oldu da. Çox qürurvericidir ki, Azərbaycan xalqı bu gün müstəqilliyini əbədi edən dahi şəxsiyyətin layiqli ardıcılı, Ali Baş Komandanımızın rəhbərliyi ilə artıq düşməni torpaqlarımızdan qovub, ərazi bütövlüyümüz bərpa olunub. Bu gün Azərbaycanda yeni dövrün şərəfli tarixi yazılır.

## Budur, Xankəndi

30 il idi ki, Qarabağdan söz düşəndə başımızı aşağı dikirdik. Çünki biz məğlub xalq idik. Məsələ bizim namus və şərəfimizlə bağlı idi. Süfrəmizin artığı ilə aclığını dəf edən erməni adlı qonşu yanımızdaca özünə yer edəedə torpaqlarımıza göz dikmiş və məqamı gələndə onu bizdən qoparmışdı. Düşmən 30 il ərzində torpaqlarımızın yeraltı-yerüstü sərvətlərini də daşıyıb dünya bazarlarına çıxarmış, satıb, sovmuşdu.

30 il idi ki, minlərlə soydaşımız köçkün həyatı yaşayırdı. Ermәni isə onların evlərini daşıyıb dağıtmış, od vurub yandırmışdı. Soydaşlarımız yurd həsrətlisinə çevrilmişdi. Dövlət tərəfindən 30 ildə nə qədər qayğı ilə əhatə olunsalar da, torpaqlarını, öz yurdlarını arzulayır, buna görə də üzlərindən kədər əskik olmurdu.

Torpaqlarımız işğaldan azad olunandan sonra xeyli vaxt səsi çıxmayan erməni terrorçuları isə torpaqlarımızda peyda olub yeni əməliyyatlara başlamışdılar ki, artıq bunun qarşısı alınmalı idi.

15 oktyabrda Xankəndidə Azərbaycan bayrağını qaldıran dövlətimizin başçısı da bu məsələyə münasibət bildirdi: Keçən ay antiterror tədbirləri qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Budur, bu da nəticə, Azərbaycan xalqı öz torpaqlarında erməni terrorçularına qarşı antiterror əməliyyatı həyata keçirdi və onları məhv etdi. Bu gün Xankəndidə dalğalanan Azərbaycan bayrağı bu xalqın birliyinin, həmrəyliyinin, qəhrəmanlığının nümayişi, göstəricisidir.

## Budur, Xocalı

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni quldurları Xocalıda soydaşlarımıza qarşı dünyada analoqu olmayan faciə törətdi. Xocalılılar bir gecənin qurbanına çevrildilər. Onlar qışın qılınc kimi kəsən şaxtalı bir gecəsində öz isti ocaqlarından zorla çıxarılıb dağa-daşa salındı, səsini çıxaran ailəsinin gözü qarşısında güllələndi, uşaqlar süngülərə keçirildi. Ən acınacaqlısı isə odur ki, səhəri gün öldürülmüş insanlara düşmən tərəfindən işgəncə verildi, onların burun-qulaqları, əl-ayaqları kəsildi, dəriləri soyuldu.

Bütün bunlar bax, 15 oktyabrda dövlətimizin başçısının Azərbaycan bayrağını dalğalandırdığı Xocalıda baş vermişdi. O zamandan ta ötən illərədək Xocalının haqq səsinin dünyaya yayılması uğrunda dövlətimiz yorulmadan mübarizə aparmışdır. Ondan çox ölkə Xocalı soyqırımını tanımış, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır.

Ötən günlərədək Xocalıdakı o müdhiş gecədə sağ qalan soydaşlarımız torpaq həsrəti ilə alışıb-yanırdı. Dövlətimizin başçısının Xocalıda Azərbaycan bayrağını qaldırması bütün xalqın qüruru oldu. Eyni zamanda, bununla həyatlarını 1992-ci ildə faciəli şəkildə itirmiş xocalıların qisası alındı.

Çox keçməz, Xocalıda da bərpa işlərinə başlanar, bu əzəli yurd yerinə yeni həyat gələr və yaxın gələcəkdə xocalılılar da doğma torpaqlarına qayıdar.





## Budur, Ağdərə, Xocavənd, Əsgəran

Qarabağın dilbər guşələrindən olan Ağdərə, Xocavənd və Əsgəran da illərlə erməni işğalı altında inləyən yurd yerlərimizdən idi. Bu torpaqlarda yaşayan soydaşlarımız da erməni vəhşiliyinə uğramış, uzun illər torpaq dərdi sağalmaz yaralarına çevrilmişdi.

Erməni işğalına qədər Ağdərənin 14 kəndində 14 mindən çox azərbaycanlı yaşayıb. Ağdərə rayonu keçmiş Dağlıq Qarabağdakı bir çox ərazilər kimi, I Qarabağ müharibəsinin başlanğıcında erməni silahli qüvvələrinin nəzarəti altına keçir. 1992-ci ildə Azərbaycan ordusunun hücumu nəticəsində Ağdərə rayonu ərazisinin bir çox hissəsi erməni işğalçılarından azad edilir. 1 il boyunca Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir. Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçir. Onun rəhbərlik etdiyi ordu bölmələri öz mövqelərini qoyaraq Bakıya doğru hücuma qoşuldular. Bundan məharətlə istifadə edən erməni ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal etmişdi.

19 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror əməliyyatlarının nəticəsində Ağdərə rayonu 24 sentyabr 2023 cü ildə Azərbaycan ordusu tərəfindən azad olunmuşdur.

Xocavənd 2 oktyabr 1992-ci ildən 10 noyabr 2020-ci ilə kimi Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olmuşdur. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocavənd şəhəri Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçmişdir. 26 sentyabr 2023-cü ildən şəhərə Azərbaycan silahlı qüvvələri nəzarət edir.

Xocalı rayonunun Əsgəran qəsəbəsi də Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən 1992-ci ildə işğal olunmuşdu. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Əsgəran qəsəbəsi Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçmişdi.

19-20 sentyabr 2023-cü il tarixində Qarabağda həyata keçirilən lokal antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Əsgəran qəsəbəsinə nəzarəti ələ keçirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi və Xocalı kimi, Ağdərədə, Xocavənddə və Əsgəranda da dövlət bayrağını ucaldıb.

## 20 ilin təntənəsi

Həm 44 günlük II Vətən Müharibəsi, həm 2020-ci ildən Qarabğda və Şərqi Zəngəzurda həyata keçirilən böyükmiqyaslı quruculuq işləri, məcburi köşkünlərimizin artıq bir qisminin ata-baba yurdlarına geri dönməsi, son 3 ildə davam edən danışıqlar, həm də ötən ay həyata keçirilən 23 saatlıq antiterror tədbirləri ötən 20 ilin təntənəsidir. Ölkəmizin hərtərəfli inkişafını təsdiq edən Zəfərdir. Son 20 ildə iqtisadi gücümüzün artmasının, dünyada tanınmağımızın, milli ordumuzu yaratmağımızın, dövlət-xalq birliyinə nail olmağımızın, milli vətənpərvər ruhlu gənclərin yetişdirilməsinin, ümumilikdə torpaqlarımızı azad etməyə qadir olduğumuzu və bunu bütün dünya qarşısında nümayiş etdirə bildiyimizin təntənəsidir.

Məhz 15 oktyabrda dövlətimizin başçısının Qarabağın digər bölgələrində də Azərbaycan bayrağını qaldırması 20 ilin yekunu dəyərində idi. Prezident cənab İlham Əliyevin Xankəndidəki çıxışında vurğuladığı kimi: Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır...

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

## Haradasınız "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?" deyənlər...

Bir neçə gündür ki, 30 ildən artıq bir dövrdə susmayan, görülən işlərə kölgə salmağa çalışan bir qrup ünsürün nədənsə səs-sədası gəlmir. Bu nə səssizlikdir belə? Bəlkə utanmaq hissidir, irəli sürülən fikirlərin, uydurulan yalanların əsassızlığına peşman olmaqdır. Bəlkə əsassızcasına arxalarında dayandıqları nahaqların biz haqlı insanlardan üstün tutulmasına görə xəcalət hissidir. Bəlkə arzuladıqlarının əksinə baş verən hadisələrə təəssüf hissidir. Bəlkə də illərlə danışdıqları boşboş sözlərin puç olmasının susqunluğudur. Bəlkə də növbəti uğursuzluqlarının susqunluğudur. Bilmirəm bunlardan hansıdır, lakin çox susqundur dünənədək dil-dil ötənlər. Düşünürəm ki, bir vaxtlar "bəs Laçın, Kəlbəcər, Ağdam?" deyənlər çox keçmədən necə susdularsa, sonra "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran, bu, qələbədirmi?" deyərkən və nəticəni görərkən də eyni qaydada susdular.

Susmaqdan başqa əlacı olmayan başqa nə edə bilər ki?.. Çox güman ki, danışmağa yeni mövzu axtarışına çıxırlar, tapan kimi yenə də varlıqlarını hiss etdirəcəklər. Lakin bir məsələ unudulmamalıdır ki, onlar da Qarabağın azadlığı ilə şərəf və namusu xilas olan xalqa mənsubdurlar. Nə qədər özlərini kənara çəksələr də...

***Mətanət Məmmədova***

# “Qız yükü duz yükü”

ARAŞDIRMA

Biz öz milli kökünə bağlı, milli adətləri yaşadan, öz həyatımızda onları əsas götürən bir xalqıq. Xalqımızın gözəl adətləri çoxdur və bunlardan biri də müqəddəs dəyərlərə bağlı olan toy adətidir. O adət ki, onunla yeni bir ailənin təməli qoyulur. Təəssüflər olsun ki, bəzi toy məclisləri heç də gözəl bir ailənin təməlini qoymaq məqsədilə yox, müxtəlif maraqlar üçün qurulur. Əsasən də müxtəlif səbəblərdən qız uşaqlarının uşaqlıq həyatından alınaraq erkən nikaha cəlb edilməsi hazırkı dövrümüzün aktual problemidir. Nəticədə bəzi qız uşaqları həm təhsildən uzaqlaşdırılır, həm də ailə məsuliyyətini dərk etmədən belə bir ağır yükü daşımaq məcburiyyətində qalır. Bəs, erkən nikah hansı fəsadlara yol aça bilər? SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Erkən nikah nədir?

Erkən nikah yaşı 18-dən az olan yeniyetmələrin nikaha daxil olmasıdır. 18 yaş uşaqların müdafiəsi baxımından 1989-cu il tarixli



Uşaq Hüquqları Konvensiyasında müəyyənləşmiş son yaş həddidir. Beynəlxalq standartlara görə, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Azərbaycan qanunvericiliyinə görə, yalnız rəsmi şəkildə bağlanmış nikahlar qanuni sayılır. Rəsmi nikahın bağlanması üçün iki əsas şərt vardır: nikah könüllü və tərəflərin yaşı qanunvericilikdə icazə verilmiş həddə olmalıdır. Azərbaycan Respublikasında nikah bağlamaq üçün aşağı yaş həddi kişilər və qadınlar üçün 18 yaş müəyyən edilib.

## Erkən nikahlarla bağlı dünyada vəziyyət

Dünyada hər gün 25 min, ildə isə 10 milyondan çox erkən nikah faktı baş verir. Hazırda erkən nikahlar daha çox Asiya və Afrika ölkələrində geniş yayılıb. Cənubi Asiyada demək olar ki, qızların ya-




rısı, Afrikada - Saxaradan cənuba gənc qızların üçdə bir hissəsindən çoxu 18 yaşına çatmamış nikaha daxil olurlar. Erkən nikahların ən yüksək göstəricilərinə görə Niger - 75%; Çad və Mərkəzi Afrika Respublikası - 68%; Banqladeş - 66%; Qvineya - 63%; Mozambik - 56%; Mali - 55%; Burkina-Faso və Cənubi Sudan - 52%; Malavi - 50%; Hindistan - 47% fərqlənirlər.

Bir sıra Avropa ölkələrində də erkən yaşda nikahlara rast gəlmək olur. Məsələn, son illər Böyük Britaniyada 2,6 %, Avstraliyada 1,8 %, İsveçrədə 1,6 %, Fransada 0,8 %, Danimarkada 0,6 % erkən nikah faktı baş verib. Qonşu Türkiyədə də erkən nikah aktual problem olaraq qalmaqdadır. Statistikaya görə, 18 yaşa qədər olan 180 mindən çox qız Türkiyədə nikaha girir.

İnkişaf etməkdə olan ölkələrdə 15-19 yaşlı qızlar arasında ölüm hallarının əsas səbəblərindən biri hamiləlik və doğuşun ağırlaşması hallarıdır. BMT-nin Uşaq Fondunun (UNICEF) araşdırmalarına görə, hər il 16 milyon yeniyetmə qız hamilə qalır, bunlardan təxminən 50.000 nəfəri həyatını itirir. Bu cür halların demək olar ki hamısı aşağı və orta gəlirli ölkələrdə baş verir. 20 yaşadək qadınlar arasında ölü doğulmuş və doğuşdan sonra ölmüş uşaqların sayı 20-29 yaş arasında hamiləliyin baş verdiyi qadınlardan 50% çoxdur. Bu vəziyyəti nəzərə alaraq BMT 11 oktyabr tarixinin Beynəlxalq Qızlar Günü kimi qeyd olunmasını qərara alıb.

Erkən nikahlar əsasən aşağıdakı hallarda baş verir:

- Erkən nikah probleminin özündə tarixi ənənələrin yükünü daşıması, yəni tarixi ənənə və mentalitetdən irəli gələn səbəblər: ”qarımış qız”, ”qız yükü duz yükü”, ”tez evlənənlə tez yuxudan duran qazanar” kimi yanlış stereotiplərin hələ də qalması;
- Valideynlərin qızlarını cinsi təcavüz və zorakılıqdan qoruması düşüncəsi. Bəzi valideynlərin erkən nikahların qızlarını cinsi istismardan qoruya biləcəyinə dair fikirlərindən fərqli olaraq, BMT araşdırmaları bunu təkzib edir. 18 yaşına çatmadan ailə quran qızlar daha yetkin yaşda nikaha girənlərə nisbətən daha çox şiddət qurbanı olurlar. Bu, xüsusilə qız və onun həyat yoldaşı arasındakı yaş fərqindən ortaya çıxan vəziyyətdir.
- Ailənin maddi vəziyyəti, ümidsizlik atmosferi yaradan kasıbçılıq, evliliyin övladına xoşbəxt həyat gətirəcəyi fikri. Bu praktika kəndlərdə və aztəminatlı ailələrdə geniş yayılmışdır. Bir çox hallarda bu nikahlar valideynlər tərəfindən təşkil edilir, burada qızların perspektivləri və seçimləri məhdud olur.
- Kənd qızlarının işlə təmin olunmalarındakı çətinliklər və çarəsizlik;
- İcma həyatında hər kəsin davranışının sərt reqlamentasiyasının məcburi nikaha cəlb olunma hallarına müdaxilə etməyi çətinləşdirməsi;
- Kəndlərdə kişilərin əmək miqrasiyasının qadınlar arasında müəyyən ab-havanın yaranmasına, ailə qura bilməmək qorxusuna səbəb olması;
- qaçırılma halları və s.

## Erkən nikah hansı fəsadlara səbəb ola bilər?

Erkən nikah nəticəsində bəzi qız uşaqları həm təhsildən uzaqlaşdırılır, həm də ağır ailə məsuliyyəti ilə yüklənirlər. Bu cür tələsik qurulan ailələr isə bəzən uğursuz və bəzən də qızların ağır bioloji və psixoloji travma almalarına səbəb olur. Həmçinin erkən nikah qadının təhsil almasını məhdudlaşdırır.

Erkən nikahın fəsadlarına uşaqlıq və yeniyetməlik dövründə ailə quran qadının orqanizmi tam formalaşmadığı halda hamilə olma-



sı onun səhhətində müxtəlif problemlərin yaranmasına səbəb olur. Doğuş zamanı həm qadının, həm də uşağın ölüm ehtimalı yüksək olur. Müxtəlif anomaliyalı uşaqların doğulmasına səbəb olur. Bu fəsadlardan vaxtından əvvəl doğulan uşaqlar, anada eklampsiya və preeklampsiya hallarının tez tez baş verməsi, anada anemiyaların, infeksiyon xəstəliklərə tutulma halları daha çox müşahidə olunur. Bunun əsas səbəbi qadının fizioloji cəhətdən tam inkişaf etməməsidir. Həmçinin, doğuşdan sonrakı müxtəlif xəstəliklərin inkişaf riski artmış olur. Aparılan tədqiqatlara görə, 18 yaşdan kiçik anaların 35- 55%-i yarımçıq uşaqlar və ya kifayət qədər çəkisi olmayan uşaqlar dünyaya gətirmə riski 19 yaşlı gənc analara nisbətən daha yüksəkdir. Uşaq ölümləri isə 60% yüksəkdir.

Demək, erkən nikah təkcə ananın deyil, uşağın da sağlamlığını təhlükə altına alır. Uşaq yaşlarında yeni bir ailəyə, evə köçən qız yeni həyata psixoloji cəhətdən də hazır olmadığı üçün onda psixoloji problemlər yaranır. Bütün bu problemlər ciddi psixoloji hallara, ağır depressiya və hətta intihar cəhdinə gətirib çıxara bilər.

**Psixologiya üzrə fəlsəfə doktoru Təranə Paşayeva** erkən nikahın yol açdığı fəsadları psixoloji aspektdən dəyərləndirərkən, bir çox halları nəzərə almaq lazım olduğunu bildirib: ”Bu hallardan ən çox təsadüf edilənlər obsessiv-kompulsiv pozuntu əlamətləri, depressiya, təşviş pozuntuları və buna paralel baş verən panik ataklardır. Erkən nikahın səbəb olduğu obsessiv-kompulsiv pozuntunun meydana çıxmasına zəmin yaradan əsas səbəb tərəflərdən birinin cinsi akta hələ hazır olmaması və ya özünü bu aktın baş verməsi üçün hazır hiss etməməsidir. Həmçinin, nikahdan öncə eşitdiyi və inandığı



bir sıra cinsi miflər də bu pozuntunun yaranmasına səbəb ola bilər. Onu da qeyd etmək olar ki, OKP iyrənmə nəticəsində də təzahür edir. Sözü gedən hallar adətən qadınlarda daha sıx müşahidə olunur. Bəzən erkən nikah zamanı tərəflərin bir-birlərini tanımağa kifayət qədər vaxtı olmur. Ailə üzvləri tərəflərə bir-birlərini kifayət qədər tanımağa şərait yaratmırlar. Bu da öz növbəsində gələcəkdə tərəflər arasında ünsiyyət azlığı, ailə daxili rolların düzgün mənimsənilməməsi, yeni mühitə adaptasiya ola bilməmək, konfliktli situasiyaların yaranması, şiddət, dolayı və ya birbaşa yönəlmiş verbal aqressiya və s. kimi neqativ hallara yol açır. Nəticə etibarı ilə tərəflərdən biri, bəzən isə hər ikisində depressiv əlamətlər təzahür edir.

Erkən nikah zamanı müəyyən problemlərin vaxtaşırı müzakirə olunmaması və aqressiyanın daxildə toplanması, tərəflərdə şüuraltı olaraq neqativ düşüncələrin toplanmasına səbəb olur. Uzun müddət bəhsi gedən neqativ düşüncələr şüur altında toplanır və nəticədə panik ataklar formasında özünü büruzə verir.

## Azərbaycanın hansı bölgələrində erkən nikahlar geniş yayılıb?

Azərbaycanın elə bölgələri var ki, orada abituriyentlərin gender göstəriciləri kəskin fərqlənir. Xüsusən cənub rayonlarında bu fərq özünü daha qabarıq göstərir. Cənub rayonlarında ali məktəblərə sənəd verən abituriyentlərin cəmi 10 faizini qızlar təşkil edir. Bu o deməkdir ki, bizim qızlar erkən yaşla-



rından təhsil hüququndan məhrum edilir. Bakının Nardaran qəsəbəsində orta məktəbə gedən 100 qızdan uzağı 10-11 nəfəri 11-ci sinfə gəlib çatır. Son illərdə ali məktəbə sənəd verən qızların sayı azalıb. Qəbulun nəticələri isə fərqlidir. 2004-cü ildə 1998-1999-cu illərdə anadan olan 125 mindən çox uşaq birinci sinfə daxil olub. Onların 50 faizi qızlar, 50 faizi isə oğlanlardır. Doqquz ildən sonra 3,5 faiz uşaq heç 9-cu sinfə gəlib çatmayıb. Deməli, 4 min 500-dən çox uşaq (600-ü oğlan, yerdə qalanı isə qızlar) təhsil ala bilməyib.

**Sosioloq Əbülfəz Süleymanlı** elmi-texnoloji innovasiyalar dövrü adlandırılan XXI əsrdə erkən nikahların hələ də problem olaraq qalmasına təəssüflənir. Qlobal miqyasda bu problem daha çox sosial-iqtisadi çalarlara malik problem kimi özünü büruzə versə də, əslində, adət-ənənələr adı altında pərdələnmiş və beyinlərə yanlış sirayət etmiş stereotiplər bu cür halların dünyanın fərqli ölkələrində kütləvi xarakter almasına səbəb olur. Erkən nikahlara yol açan amillərdən biri ailələrin aşağı təhsil və ümumi mədəniyyət səviyyəsi ilə bağlıdır. Belə ki, dünyanın fərqli ölkələrində aparılan tədqiqatların nəticəsinə görə, erkən nikahlara təhsil və mədəni



dünyagörüş səviyyəsi aşağı olan ailələrdə daha çox təsadüf olunur: ”Şübhəsiz ki, erkən nikahların uşaq hüquqlarının pozulmasından məişət zorakılığına, doğuş zamanı ana-uşaq ölümlərindən fiziki-psixoloji çətinliklər kimi çox geniş spektri əhatə edən ciddi fəsadları mövcuddur. Hər şeydən əvvəl erkən nikahlar bu akta sövq olunan yetkinlik yaşına çatmamış qızların, istərsə də oğlanların normal və sağlam inkişafının qarşısını alır”.

Əbülfəz Süleymanlı bildirir ki, əksər hallarda uşaqların iradəsi xaricində gerçəkləşən bu növ nikahlar onların mənəvi bütövlüyünə xələl gətirərək cəmiyyətə qarşı etimad hisslərinin zəifləməsinə gətirib çıxarır. Xüsusilə yetkinlik yaşına çatmamış qızlar bu növ nikahlara sövq olunaraq təhsillərini yarımçıq qoymaq məcburiyyətində qalırlar. Beləliklə də hər hansı bir peşəyə yiyələnə bilmirlər. Bu isə o deməkdir ki, onlar gələcəkdə ortaya çıxa biləcək boşanma, cütlərdən birinin vəfat etməsi kimi problemlər qarşısında iqtisadi cəhətdən zəif vəziyyətə düçar olacaqlar.

## Qanunda erkən nikaha girənlər üçün hansı cəza tədbirləri nəzərdə tutulub?

Qadını nikaha daxil olmağa məcbur etməni əngəlləmək üçün 2011-ci ildə ölkəmizin Cinayət Məcəlləsində (CM) bu problemlə bağlı maddəyə dəyişiklik edilib. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilən əlavəyə əsasən qadını nikaha daxil olmağa məcbur etməyə görə cəza tədbirləri müəyyən olunub. Həmçinin qanunvericilikdə yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etməyə görə də sanksiya nəzərdə tutulub.

***Ləman Sərraf***

*Əvvəli ötən sayımızda*



***Yaşar Əhmədov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti***

# Yeni enerji strategiyasının memarı...

Bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur və bütün sahələrdə əlaqələrimiz uğurla inkişaf edir-bu səbəbdən bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından eləcə də, geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz kəmərləri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırmışdır. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verir. Eyni zamanda, iki dövlət arasında genişlənən əməkdaşlıq və strateji tərəfdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. İkitərəfli əlaqələrin yüksək səviyyəyə qalxması Ümummilli liderin xarici siyasət kursunda Türkiyə ilə əlaqələrin inkişafına yönəlmiş ardıcıl və məqsədyönlü xətt dövlət başçısı cənab İlham Əliyev tərəfindən inkişaf etdirilərək strateji tərəfdaşlığın dərinləşməsinə nail olunmuşdur.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Ulu öndər Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. 5-8 may 1997-ci il tarixində Prezident Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi. 12-17 mart 2001-ci ildə isə Ulu öndər Türkiyəyə növbəti dəfə rəsmi səfər zamanı imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə şərait yaradılması baximından əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetinin Fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir.

Ümummilli liderin müəyyən etdiyi uzaqgörən neft strategiyası Avropanın enerji təchizatında hərəkət istiqamətini kökündən dəyişmişdir. Bakı-Tbilisi-Ceyhan və TANAP xətlərinin istifadəyə verilməsi ilə Avropaya xam neft və mavi qaz ixracatı yaşıl qitənin cənub səmtindən daxil olmağa başladı. Adı çəkilən hər iki xəttin ötürücülük gücü Avropanın tələbatını tam ödəməsə də, Avrasiyadakı mövcud vəziyyət bu istiqamətin alternativsizliyini ortaya qoydu. Ulu Öndərin müəyyən etdiyi bu strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın enerji siyasətini şaxələndirmiş və yeni-yeni siyasi-iqtisadi avantajlar qazandırmışdır. Hazırda Avrasiya və Afrikada təchizatda sürətlə dərinləşən böhran hədlərinin qarşısının alınması Anadolu və Qafqaz bölgəsində sabitliyin qorunması və uzunmüddətli sülh təminatına bağlıdır. Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP, Petkim kimi enerji və sənaye layihələri Türkiyənin təkcə iqtisadi inkişafında deyil, eyni zamanda, milli-dövlətçilik təhlükəsizliyinin qorunmasında da mühüm gücə çevrilmişdir. İkinci Dünya müharibəsində və bu dağıdıcı savaşdan sonra böyük qalibiyyətlə ölkəni böhranlardan xilas edən müdrik türk diplomatiyası hazırda enerji və geosiyasi resursların gücü ilə öz şərtlərini bütün dünyaya diktə edir. Hazırda Türkiyə enerjinin bütün növlərinin inkişafı üçün mühüm strategiyalar həyata keçirir. Bunun ən böyük nəticəsi enerjinin çevrilməsindəki itkilərin qarşısının alınmasına nail olunur. Türkiyənin enerji və geosiyasi mərkəzə çevrilməsi təkcə ölkə daxili üçün deyil, eyni zamanda, Avropanın, eləcə də Afrikanın şimal qisminin enerji, qida və xammal təhlükəsizliyi üçün mühüm əhəmiyyətə malikdir. Türkiyə elektrik enerjisi sahəsində istehsalı və itki risklərini azaltmaqla TANAP ilə qəbul etdiyi qaz ehtiyatlarından daha çox həcmdə Avropaya nəql edə biləcəkdir. Qeyd etməliyik ki, məhz TANAP-ın daşıyıcılıq gücü sayəsində neft və qaz tədarükçüsü olan ərəb ölkələri Türkiyəyə daha ucuz qiymətə karbohidrogen məhsullar satmaq üçün rəqabətdədirlər.

Sadaladığımız vəziyyət Zəngəzur dəhlizinin Avrasiya üçün nəfəslik olduğunu bir daha təkrar etməyə əsas verir. Nəzərə almaq lazımdır ki, Azərbaycan neft və qaz ölkəsi olmaqla bərabər həlledici tranzit imkanlara malik məkan, o cümlədən elektrik enerjisi ixracatçısıdır. Sənayedə və məişətdə enerjiyə olan gündəlik tələbat artdıqca tranzit və çoxnövlü enerji resurslarına sahib tərəflərin imkanlarına ehtiyac da bir o qədər artır. Azərbaycan və Türkiyə arasında iqtisadi, o cümlədən enerji sahələrində əməkdaşlıq əlaqələri uğurla inkişaf edir. Hər iki tərəfdən investisiya qoyuluşunun ilbəil artması qarşılıqlı inamın ifadəsidir.

Hazırda qalib Azərbaycanın gündəliyində duran əsas məsələ işğaldan azad edilən ərazilərin bərpası və ora Böyük Qayıdışı yüksək səviyyədə təmin etməkdən ibarətdir. Söhbət 10 min kvadratkilometrədək ərazilərin bərpasından gedir. Bu çərçivədə bəhs olunan ərazilərin enerji potensialından səmərəli şəkildə istifadə edilməsi də qarşıya qoyulan mühüm hədəflər sırasında yer alır. Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri "yaşıl enerji" zonası elan etmişdir-müəyyənləşdirilən proqram çərçivəsində artıq bir neçə "yaşıl enerji" infrastrukturu istifadəyə verilmiş və yeni layihənin icrası da intensiv şəkildə davam etdirilir. Dost ölkə olan və 44 günlük müharibədə Azərbaycana ardıcıl şəkildə mənəvi-siyasi dəstək verən Türkiyənin şirkətləri işğaldan azad edilmiş ərazilərin bərpasında fəal iştirak edirlər. Azərbaycanla Türkiyə arasında enerji sektorunda əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə hər iki tərəfdə böyük əminlik var.



Azərbaycan-Türkiyə münasibətləri daha da möhkəmlənir, ölkələrimiz arasında əlaqələrin inkişaf səviyyəsi regional tərəqqiyə mühüm töhfələr verir. Ölkələrimiz arasında yeni sazişlərin imzalanması böyük bir coğrafi məkanda reallaşdırılan enerji siyasətinin əsas konturlarını müəyyən edən mühüm faktorlardan biri olacaqdır. Avropa İttifaqının, digər Qərb ölkələrinin böyük ümidlərlə baxdığı məşhur "Nabukko" kəmərinin inşa edilməsi xeyli dərəcədə məhz Azərbaycanla Türkiyə arasında razılaşdırılan yeni qaz sazişindən keçir. Bütün bunlar isə ölkələrimizin energetika sahəsində möhkəmlənən əlaqələrinin qlobal enerji təhlükəsizliyinin təminatına da yeni mühüm töhfələr bəxş edəcəyindən xəbər verir. Bu günə qədər isə ölkələrimizin birgə həyata keçirdiyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi hazırda Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Azərbaycan və Türkiyə prezidentlərinin dəstəyi ilə ölkələrimizin enerji sahəsindəki əməkdaşlığın əhəmiyyəti dünyada getdikcə artmaqdadır. Həyata keçirilən layihələr Azərbaycanın və Türkiyənin bölgədəki gücünü daha da artırmaqdadır. Azərbaycan enerji mənbəyi, Türkiyə isə əlverişli tranzit ölkə, etibarlı tərəfdaş və müttəfiq kimi qlobal əhəmiyyətli enerji-kommunikasiya layihələrinin həyata keçirilməsi strategiyasını uğurla davam etdirirlər. Bu siyasətin növbəti parlaq təzahürlərindən biri Türkiyənin İzmir şəhərində açılan "Star" zavodudur-bu zavod Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməkdədir-qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, "Star" neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə Azərbaycan-Türkiyə qardaşlığını inkişaf etdirmir, eyni zamanda, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının ən önəmli tərəfi, həmçinin qarşılıqlı yatırımlar, dünya səviyyəli enerji və nəqliyyat sahələrində əməkdaşlıq Ulu öndərin, Türkiyənin və Azərbaycanın dövlət başçıları Ərdoğanın və İlham Əliyevin imzaladığı sənədlərlə iki ölkə arasında münasibətlər daha da möhkəmlənmişdir. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. "Star Rafineri"nin yaradılması üçün Azərbaycan milyardlarla dollar yatırım etmişdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, digər önəmli layihələrin hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır.

Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirilən hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışı edilən bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırır. Türkiyənin ən böyük enerji layihəsi olan STAR neft emalı zavodunun açılması Azərbaycan və Türkiyənin iqtisadi və enerji siyasəti baxımından çox önəmli hadisədir-Türkiyədə STAR neft emalı zavodunun inşası üçün Azərbaycanın qoyduğu birbaşa investisiya Türkiyənin tarixi boyu xaricdən aldığı ən böyük birbaşa investisiya baxımından xüsusi çəkiyə malikdir. "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda artıq xam neft emalına başlanılmışdır. Zavod ildə 10 mln. ton xam neft emal gücünə malikdir. Müəssisə "Urals", "Azeri Light" və "Kərkük" kimi müxtəlif çeşidli neftlərin emalını həyata keçirə biləcək ən son texnologiya ilə dizayn edilmişdir. Müəssisə Türkiyənin neft məhsullarına olan tələbatının 25 faizindən çoxunu təmin edəcəkdir.

Azərbaycanla Türkiyə arasında iqtisadi sahədə əməkdaşlıq çoxvektorludur. Enerji sektorunda əməkdaşlıq iki ölkə arasında iqtisadi əlaqələrin mühüm qolunu təşkil edir. Bu barədə Azərbaycan-Türkiyə I Enerji Forumunda ətraflı bəhs olunmuşdur-Forum Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya çərçivəsində, strateji enerji əməkdaşlığının daha da möhkəmləndirilməsi məqsədilə təşkil edilmişdir. Forum zirvədə olan Azərbaycan-Türkiyə münasibətlərinin enerji sahəsində də müttəfiqlik səviyyəsinə yüksəlməsini dəstəkləyən platforma kimi qiymətləndirilir. İndiyədək Azərbaycan və Türkiyənin birgə səyləri sayəsində bir neçə nəql marşrutunun yaradılması iki ölkə arasında enerji sektorunda fəal əməkdaşlığın göstəricisidir.

*Ardı Səh. 12*

# Yeni enerji strategiyasının memarı...






Əvvəli Səh. 11

Ötən əsrin 90-cı illərinin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəql marşrutlarının şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi və o Azərbaycan neftinin Avropa bazarlarına daşınması üçün əsas nəql marşrutudur.

2022-ci il oktyabrın 6-da İstanbulda keçirilən Azərbaycan-Türkiyə II Enerji Forumunda karbohidrogen, bərpa olunan enerji, enerji səmərəliliyi, elektrik enerjisi bazarı və tənzimləmə məsələləri üzrə 4 İşçi qrupunun keçirilmiş görüşlərinin nəticələri barədə müzakirələr aparılmış, həmçinin təbii qaz və elektrik enerjisinin tədarükü, eləcə də tranziti ilə bağlı tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi müzakirə edilmişdir. Forumun Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərində enerji əməkdaşlığının gücləndirilməsinə və qlobal çağırışlara uyğun inkişafına xidmət etdiyi bildirilmişdir. Azərbaycan-Türkiyə enerji birliyinin tarixi zərurət, regional və Avropa miqyasında təhlükəsiz, dayanıqlı enerji təchizatının qarantıdır-xüsusilə, enerji böhranı şəraitində TANAP və TAP təchizatda etibarlılıq rəmzinə çevrilmişdir. Azərbaycan və Türkiyə enerji təhlükəsizliyinin davamlı təminatında strateji maraq kəsb edən ölkələr olmuşlar-mürəkkəb geosiyasi və enerji böhranı reallıqlarında Azərbaycan və Türkiyənin getdikcə artan belə geostrateji rolu dövlət başçılarının bir-birinə sarsılmaz inam və güvənlə yürütdükləri siyasətin, onların timsalında Azərbaycan və Türkiyənin birləşmiş gücünün təcəssümüdür. TANAP-ın Türkiyə üçün hazırkı və dəhlizin genişləndirilməsi ilə artacaq əhəmiyyətini hamı qəbul edur-Azərbaycandan elektrik enerjisi Zəngəzur dəhlizi vasitəsilə həm Türkiyəyə ixrac ediləcək, həm də Avropaya ötürüləcəkdir-bununla, neft, təbii qazdan sonra elektrik enerjisi ilə də Azərbaycan və Türkiyə enerji təhlükəsizliyinin təminatında mövqelərini daha da möhkəmləndirmiş olacaqlar. Türkiyə hər mərhələsində dəstəyini güclü şəkildə göstərdiyi Vətən Müharibəsi ilə işğaldan azad edilən ərazilərdə "Yaşıl Enerji" Konsepsiyasının həyata keçirilməsində həm dövlət, həm də özəl sektor olaraq hər zaman Azərbaycanın yanında olmaqda davam edir-enerji sektorundakı iş birliyi daha da irəliyə gedərək hökumətlərarası anlaşmaya imza atılmışdır. Türkiyə bərpa olunan enerjinin inkişafına, enerji səmərəliliyinə, elektrik enerjisi bazarının liberallaşdırılması və tənzimləməyə dair zəngin təcrübəsini Azərbaycanla bölüşür və bu da ölkələrimizin enerji transformasiya prosesində birgə addımlarına dəstək verir.

2023-cü il sentyabrın 29-da Naxçıvanda Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan - Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı keçirilmişdir. Naxçıvanın bütün dövrlərdə Azərbaycan-Türkiyə münasibətlərinin mərkəzində olmuşdur-Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməyi və onu "yaşıl enerji" zonasına çevirməyi hədəfləyən yeni inkişaf mərhələsi Azərbaycan-Türkiyə enerji əməkdaşlığında yeni səhifədir. Bu günlərdə illik 500 milyon kubmetr qaz tədarük edəcək İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, həmçinin Azərbaycanda və Türkiyədə bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlıq sənədinin imzalanması göstərdi ki, ölkələrimiz yeni strateji kursun birgə həyata keçirilməsində qərarlıdırlar və onların siyasi iradəsi bu prosesdə də həlledicidir. Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvanın enerji potensialında səmərəli istifadə və muxtar respublikanın yaşıl enerji zonasına çevrilməsi sahəsində nəzərdə tutulan layihələr mühüm əhəmiyyət daşıyır. Yaxın perspektivdə qarşıya qoyulan əsas hədəf Naxçıvanda alternativ və bərpa olunan enerji potensialından maksimum istifadə olunması, elektrik enerjisini Türkiyəyə ixrac edilməsi və Avropaya ötürülməsindən ibarətdir. İğdır-Naxçıvan qaz kəməri də məhz "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı müəyyənləşdirilən əsas tədbirlərdəndir.

Azərbaycan özünün müstəqil enerji siyasətini həyata keçirir və bu siyasət regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Azərbaycan-Türkiyə münasibətləri türk dünyasına qarşılıqlı dəstəyin nümunəsidir. Bu gün Azərbaycan özünün müstəqil enerji siyasətini həyata keçirir. Türkiyə enerji təhlükəsizliyi məsələlərinin həllində çox önəmli addımlar atır-Türkiyə bu gün dünyanın enerji siyasətinin müəyyən edilməsində mühüm rol oynayır. Azərbaycan bir çox önəmli enerji layihələrini Türkiyə ilə bərabər icra edir və bu enerji layihələri dünya üçün böyük əhəmiyyət daşıyır. Dünyanın neft tarixi Bakıdan başlayır-XIX əsrin ortalarında dünyada ilk dəfə olaraq Bakıda sənaye üsulu ilə ilk neft çıxarıldı, yüz il sonra ilk dəfə dənizdə neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır. Müstəqilliyin ilk illərində Azərbaycan ilk dəfə olaraq xarici neft şirkətlərini Xəzər dənizinə dəvət etmiş, "Əsrin kontraktı" imzalanmış, "Azəri-Çıraq-Günəşli" neft yataqları işə düşmüşdür. Bu yataqlar dünya miqyasında ən böyük neft qaynaqlarından biridir və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafı başlamışdır.

Azərbaycan açıq dənizlə dünya bazarlarına çıxışı olmayan ölkələrdən biridir-buna görə mütləq boru xətləri çəkilməli idi. Bu gün bizim xam nefti dünya bazarlarına çıxarmaq üçün üç boru xəttimiz var - ikisi bizim neftimizi Qara dənizə, biri isə Aralıq dənizinə - Ceyhan limanına gətirir. Tarixdə ilk dəfə olaraq Azərbaycan Xəzər dənizini Aralıq dənizi ilə bağladı və bu gün Azərbaycan nefti həm Türkiyəyə, Türkiyə ərazisindən isə dünya bazarlarına ixrac edilir. 2007-ci ildən sonra isə Azərbaycan tarixdə ilk dəfə olaraq təbii qazı ixrac etməyə başlamışdır. Bakını Ərzurumla birləşdirən boru xətti çəkildi və beləliklə, biz Türkiyəyə təbii qazın ixracına başladıq. Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atmışdır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır. Enerji təhlükəsizliyi məsələləri gələcəkdə də öz həllini tapmalıdır. Təbii qaynaqlarla zəngin olan ölkələr, tranzit ölkələr, istehlakçı ölkələr burada bir komanda kimi fəaliyyət göstərməlidir, heç bir əsassız rəqabətə yol verilməməlidir, sağlam rəqabət aparılmalıdır. Neft-qaz hasil edən və ixrac edən ölkələr arasında daha çox anlaşma olmalıdır. Bu gün dünya enerji və enerji təhlükəsizliyi məsələlərini müzakirə edəndə Türkiyəni və Azərbaycanı nəzərə almamaq mümkün deyildir. Çünki həm təbii ehtiyatlar, böyük coğrafiya, şaxələndirilmiş nəqliyyat infrastrukturu artıq bizdə var. Biz bunu yaratmışıq və biz öz işimizi bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı mənfəət və maraqlar əsasında qururuq. Xəzər dənizinin sahil ölkələrinin tükənməz ehtiyatlarını nəzərə alaraq mühakimə yürüdə bilirik ki, Azərbaycan və Türkiyə onilliklər boyu karbohidrogen ehtiyatların tranzit nəqliyyat açarını özündə saxlayacaq. Bu amil hər iki ölkənin birlikdə elektrik enerjisi ixracatçısına çevrilməsi üçün böyük perspektivlər yaradır.

Ümummilli liderin regionun inkişafı ilə bağlı tövsiyələrinin tərkib hissəsin kimi Vətən müharibəsinin başa çatmasından az sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən və region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatı təkcə yerli ekspertlərin deyil, beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir. Söhbət Cənubi Qafqazda 6 ölkənin iştirakını nəzərdə tutan yeni əməkdaşlıq formatından gedir-həmin əməkdaşlıq formatının bir tərəfi Türkiyə, Rusiya və İran, digər tərəfi isə Azərbaycan, Gürcüstan və Ermənistandır. Gürcüstan istisna olmaqla bölgənin digər ölkələri də təşəbbüsə razılıq vermişdilər. Rəsmi Tbilisinin formatda iştirakdan imtinasına səbəb isə Rusiya ilə münasibətlərdə yaranmış soyuqluqdur. Azərbaycan-İran münasibətlərində yaranan soyuqluq da 3+3 formatında əməkdaşlığın baş tutmasına imkan verməmişdir. Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi və tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi. Formatda əməkdaşlığın inkişafına daha bir maneə Ermənistanın mövqeyidir-düzdür, İrəvan formata qarşı çıxmır. Hətta 2021-ci il dekabrın 10-da bu formatda Moskvada keçirilən görüşdə də xarici işlər nazirinin müavini səviyyəsində təmsil olunmuşdur. Lakin Ermənistanla Azərbaycan arasında bir sıra problemlərin hələ də həllini tapmaması, o cümlədən iki ölkənin sərhədlərinin delimitasiya və demarkasiya olunmaması, sülh müqaviləsinin imzalanmaması, İrəvanın regional kommunikasiyaların açılmasına imkan verməməsi iki ölkənin əməkdaşlıq imkanlarına mənfi təsir göstərir. Azərbaycan 2023-cü il sentyabrın 19-20-də keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağ iqtisadi rayonunda suverenliyini tam bərpa etdi. Ermənistan rəhbərliyi də Azərbaycanın bu ərazilər üzərindəki suverenliyini tanıdığını hələ may ayında ən yüksək səviyyədə bəyan etmişdir. Ermənistan baş naziri həmin mövqeyini Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən III Zirvə görüşündə bir daha vurğulamışdır. Beləliklə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, bundan sonra geniş əməkdaşlıq platformasının yaranması üçün imkanlar yaranır. Zənnimizcə, İrəvan yaranmış bu şansı dəyərləndirməli, açılan fürsət pəncərəsini bağlamamalıdır. Burada diqqət yetirilməli məqamlardan biri də Qərbin Ermənistanı bu platformada iştirakdan yayındıra biləcəyi ehtimalıdır. Sirr deyil ki, son vaxtlar Ermənistan-Rusiya münasibətlərində soyuqluq yaşanır. Buna paralel olaraq, İrəvanın Qərb ölkələri ilə onsuz da yaxşı olan münasibətlərinin daha da istiləşməsi müşahidə olunur. Ehtimal etmək olar ki, Qərb Rusiya-Ermənistan münasibətlərindəki çatları dərinləşdirmək üçün onu 3+3 platformasında iştirakdan yayındıracaqdır. Amma İrəvanda onu da bilməlidirlər ki, bu, onların düşdükləri dalanda hələ uzun müddət qalacaqları deməkdir. Ermənistanın Zəngəzur dəhlizinin açılmasına yersiz müqavimət göstərməsi artıq yolun İrandan keçəcəyi ideyasını gündəmə gətirmişdir. 3+3 formatı təkcə siyasi və təhlükəsizlik deyil, həm də iqtisadi baxımdan böyük potensial vəd edir. Hesablamalara görə 3+3 formatına daxil olan ölkələrin ümumi iqtisadiyyatı 3 trilyon dollara yaxındır ki, bu da ABŞ, Çin, Yaponiya və Almaniyadan sonra dünyanın beşinci ən böyük iqtisadiyyatı deməkdir. Bu format 331 milyon nəfər əhalisi ilə dünyada üçüncü, ərazisinə görə isə birincidir. Bu platforma siyasi-diplomatik və təhlükəsizlik baxımından əhəmiyyətli olmaqla yanaşı, mühüm iqtisadi-ticari önəmə də malikdir. Bölgəmizdə yaranmış yeni reallıqlar fonunda 3+3 formatında əməkdaşlıq mexanizmi real və perspektivlidir. İndiyədək Benilüks və Skandinaviya, bir sıra Latın Amerikası və Cənub-Şərqi Asiya ölkələrinin regional platformalar çərçivəsində əməkdaşlıq nümunələri yaratması reallıqdır. Bu mənada 3+3 formatı da real siyasi-iqtisadi platformaya çevrilə bilər. Təbii ki, əsas məsələ tərəflərin siyasi iradə nümayiş etdirməsidir. Dahi o insandır ki, bütün yaradıcılığını, fəaliyyətini Vətəninin tərəqqisinə, xalqının rifah halının yüksəldilməsinə həsr etmiş olsun və onun irsi, ideyaları davam etdirilərək gələcək nəsil üçün uzunmüddətli proqrama çevrilsin-xalqımızın ümummilli lideri Heydər Əliyev məhz dahi şəxsiyyət idi. Ulu öndər təkcə siyasət aləmində deyil, həyatın bütün sahələrində-quruculuq işlərində, təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, incəsənətin və digər sahələrin inkişafında dahilik qazanmışdır. Onun miras qoyduğu "Yeni enerji strategiyası" proqramı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

# Qeybətə bənzər mənasız, təsirsiz və QƏRƏZLİ MÜZAKİRƏLƏR

**Bundestaqdakı həmkarları ilə Ermənistan parlamentinin nümayəndə heyətinin Azərbaycana qarşı sanksiyaların tətbiqi imkanlarını müzakirə etməsi ölkəmizə qarşı olan qərəzli niyyətin təzahürüdür. Absurd, yalan, qondarma fikirlərin səsləndirildiyi bu müzakirənin nə demək olduğu, nəyə hesablandığı, hansı məqsədə xidmət etdiyi əlbəttə ki, saul doğurur, çünki iddiaların heç bircəciyi də həqəqətə uyğun deyil. Haqlı olaraq belə bir sual ortaya çıxır ki, Bundestaqdakı həmkarları ilə Ermənistan parlamenti nəyi və hansı əsasla müzakirə ediblər? Üstəlik, törətdiyi cinayət əməllərinə, qanunsuzluqlara, mina terroruna görə sanksiya tətbiq edilməli olan Ermənistan olmalı halda, həmin ölkə parlamentinin nümayəndə heyətinin Bundestaqdakı həmkarları ilə müzakirələr aparması, Azərbaycana qarşı sanksiyalardan dəm vurması gülünc səslənir.**

"Regional təhlükəsizliyin təmin edilməsi, Ermənistanda humanitar problemlərin həlli, Azərbaycan tərəfindən həbs edilmiş şəxslərin azad edilməsi üçün beynəlxalq ictimaiyyət təcili və mühüm addımlar atmalı və Azərbaycana qarşı sanksiyalar tətbiq etməlidir", çağırışlı bəyanatın nə dərəcə absurd olduğu hər bir iddiasında özünü göstərir. Əvvəla, regional təhlükəsizliyin təmin edilməsinə töhfələr verən, həmin təhlükəsizliyi təmin edən Azərbaycandır, çünki Ermənistanın silahlı birləşmələrinin qalıqlarından və erməni separatçı birləşmələrinin tör-töküntülərindən başqa Qarabağ olmaqla, bütün regionu təmizləyərək təhlükəsizliyi məhz ölkəmiz təmin edib. İndi işğalçı ölkənin, terroru və separatçılığı dövlət siyasəti kimi qəbul edən, mina terroru törədən bir ölkənin, yəni Ermənistanın parlamentinin Bundestaqdakı həmkarları ilə məhz regional təhlükəsizliyin təmin edilməsi barədə müzakirələri bu baxımdan həddsiz dərəcədə gülünc görünür.

Müzakirələrdə, həmçinin, Ermənistanda humanitar problemlərin həlli ilə bağlı məsələ də olduqca ironik səslənir. Birinci növbədə ona görə ironik səslənir ki, Ermənistanda humanitar problemləri ermənilər özləri yaradıblar və bunun Bundestaqda müzakirəsi nə əsasla aparılmalıdır? Əgər Ermənistan tərəfi humanitar problem dedikdə, Azərbaycanın Qarabağ iqtisadi rayonundan köçüb orada məskunlaşan erməni əsillilərin problemlərini nəzərdə tutursa, nəzərə alınmalıdır ki, onları köç etməyə, ev-əşiklərini qoyub bu zamana qədər yaşadıqları, məskunlaşdıqları ərazini tərk etməyə təhrik edən məhz özləri olublar, Azərbaycan tərəfi yox. Əksinə, Azərbaycan onlara, yəni öz ərazilərində bu vaxta qədər məskunlaşan ermənilərə vətəndaşlığı qəbul etmək və reinteqrasi təklifi edib. Halbuki, stabil, sabit şəraitdə, təhlükəsizliklərinin təmin olunacağı qüdrətli bir dövlətdə digər vətəndaşlarımızla eyni hüquqda olmalarından ermənilər özləri onları məhrum ediblər və Ermənistanda mövcud olan humanitar problemlər Azərbaycan tərəfindən yaradılmayıb, öz yaratdıqları problemdir və bunun üçün hansı müzakirə aparırlar? Belə çıxır ki, axmaq, absurd fikirlərin müzakirəyə çıxarılması yalnız qərəzli yanaşmadan irəli gəlir.

Müzakirə dedikləri xırda bir toplantıda Azərbaycan tərəfindən həbs edilmiş şəxslərin azad edilməsi üçün beynəlxalq ictimaiyyətin təcili və mühüm addımlar atmalı olduğu barədə də fikirlər yer alır, halbuki bu, müzakirə mövzusu heç ola bilməz. Azərbaycan sıradan bir erməni vətəndaşını həbs edib hansısa məsuliyyəti boynuna yıxmayıb ki, bununla bağlı beynəlxalq ictimaiyyətin təcili və mühüm addımlar atmalı olduğu tələbi ilə çıxış edilsin. Azərbaycanın həbs etdiyi şəxslər beynəlxaql hüququ pozan, hüquqi normalara məhəl qoymadan cinayət əməllərinə əl atan və digərlərini də belə cinayətkarlığa təhrik və sövq edənlərdir. Öz ərazisində terrorçuluğu, separatmılığı dəstəkləyən, maliyyələşdirən Vardanyan kimisini həbs etməyə dövlətin haqqı, hüququ çatmır, yoxsa hansısa beynəlxalq hüquq buna izn vermir ki, bu məsələ müzakirəyə çıxarılır? Bəlkə, istifadəsi belə qadağan olunan raketlərin, məsələn, Gəncə kimi Azərbaycanın böyük bir rayonuna atılması əmrini verdiyini etiraf edən, bununla lovğalanan, hələ bundan sonra digər rayonlara da atılacağı ilə ölkəmizi hədələyən, mülki insanların həlak olmasına baiskar olan Araik Arutyunyanın həbsində qanuna zidd nə isə görürlər? Yaxud, törədilən soyqırımlarda, əsirlərin qətlə yetirilməsində, onlara işgəncələrin verilməsində iştirakı, əli olan Bako Saakyan və Arkadi Qukasyan kimi canilərin mühakimə edilməsinə, törətdikləri cinayət əməllərinə hüquqi qiymət verilməsinə və müvafiq cəza tədbirlərinin qanuni şəkildə tətbiq edilməsinə Bundestaq, yaxud işğalçı ölkə parlamenti qanunsuzluq kimi baxır? İndi sual oluna bilər ki, müzakirələri bu məsələlərə görə aparanlar hansı hüquqi əsasla Azərbaycanı günahkar görür və ölkəmizə qarşı hansı məntiqlə sanksiya tətbiq edilməsini müzakirəyə qoyurlar? Bu müzakirələrə qoşulanlar da, Ermənistan parlamentinin nümayəndə heyəti də, sadəcə olaraq, ikiüzlülük edir və reallıqları görməməzliyə vuraraq, qərəzli mövqedən çıxış edirlər. Keçirilən müzakirə də heç bir məna kəsb etmədiyinə görə, hansısa toplantıdan çox qərəzli və qeybət niyyətli qonaqlığa bənzəyir. Həmin qonaqlığın da hansısa təsir gücünə malik olacağını düşünmək belə axmaqlıqdır ki, bunu da ermənilər özlərinə rəva bilmiş oldular.




Sanksiyalara gəlincə, Azərbaycana qarşı hansısa bir sanksiyadan söhbət belə gedə bilməz, baxmayaraq ki, bunun üçün qətnamələr, bəyanatlar üçün erməni cəmiyyəti əldən-ayaqdan gedir. Haylar bilə-bilə ki, bunlar sadəcə quru sözdən ibarət bəyanatlardır, təsirsiz sözlərdi və yalnız kağız üzərində qalacaq ifadələrdir, hansısa mənada bu barədə müzakirələrə belə baş vurmağı özləri üçün son çarə hesab edirlər. Maraqlıdır, müxtəlif platformalarda, ələlxüsus da erməniпərəst qüvvələrin olduğu müstəvidə müzakirələrə can atan ermənilər guya bilmirlərmi ki, belə müzakirələr Ermənistana hem nə verən deyil? Avropanın Azərbaycana qarşı heç bir sanksiya tətbiq etməyəcəyi ilə bağlı bəyanatdan da xəbərsizdilər ki, özlərini bu qədər dağa-daşa çırpırlar? Hər halda ermənilər də, dünya ictimaiyyəti də tərəflərin hər birinin, ələlxüsus da Azərbaycanın müqaisəyə gəlməyəcək dərəcədə olan potensialından xəbərdardırlar və belə çıxır ki, hayların hay-küy salmaları onlar üçün yaxşı heç nə vəd edə bilməz və Ermənistan üçün də hansısa divident gətirməyəcək. Əksinə, sadalananlar tamamilə başqa proqnozlar verməyə əsas yaradır və eyni zamanda son dövrdə yaşanılanlar, təcrübə də təsdiq edir ki, bu canfəşanlıqları onlara baha başa gələcəyini deməyə əsas verir.

Ölkəmizə qarşı sanksiyaların tətbiqi ilə bağlı müzakirələrin aparılmasını, müvafiq şəkildə qətnamələrin qəbul olunmasını, bəyanatların qəbul olunmasını xatırladıqda görürük ki, bütün bunlar heç bir təsirə malik deyil. Ermənistan tərəfi belə müzakirələrlə, hansısa qətnamələrlə, bəyanatlarla Azərbaycanın öz haqq yolundan geri çəkindiriləcəyini düşünürsə, tamamilə yanılır. Həm də əksinə olduğunun dəfələrlə şahidi olubsa, rəsmi İrəvan bu qənaətə gəlməlidir ki, atılan addımlar tamamilə mənasızdır və Bakıya qarşı hansısa sanksiya olmayıb və ola da bilməz. Digər tərəfdən də hansısa sanksiyalar olsa belə, Qarabağın ermənilərə qaytarılacağı tamamilə ağılasığan deyil ki, buna ümid edənlər az da olsa ağıl sahibi olduqlarını şübhə altında qoyurlar.

Təcrübə, yaşananlar göstərir ki, Azərbaycana nə qədər çox təzyiq edilirsə, xalqımız bir o qədər qətiyyətli olur, dövlətimiz daha kəskin mövqe sərgiləyir, geri çəkilmir və ən yaxın dövrü yada salmaqla buna tam əmin olmaq olar. Məsələn, Laçın yolundakı aksiya Qarabağdan təbii sərvətlərin ixracını dayandırmağı məqsədi ilə reallaşmışdı və buna qarşı, bu aksiyanın yığışdırılması üçün təzyiq göstərməyə çalışanlar, ardınca Azərbaycanın düz Ermənistanla sərhəddə Laçın sərhəd-keçid məntəqəsini yaratdığının şahidi oldular, geri çəkildiyinin yox. Başqa bir hadisə ilə əlaqədar da eyni nəticəni görmüş oluruq, beləki, sərhəd-keçid məntəqəsini dağıtmaq istəyi ilə dünya liderlərinin ətəyindən öpənlər gördülər ki, bu istəklərinin fonunda, Azərbaycan öz ölkəsinə, vətəndaşlarına qarşı hərbi cinayətlərdə iştirak edən separatçıları həbs etməyə başladı. Bundan da nəticə çıxara bilməyənlər Azərbaycana qarşı təzyiqləri gücləndirdikləri zaman Azərbaycan dərhal, böyük sürətlə antiterror tədbirləri həyata keçirərək, ərazilərini erməni separatçılarının tör-töküntülərindən tamamilə təmizləyərək, ərazi bütövlüyünü, suverenliyini tam şəkildə təmin etdi və bayrağını da Xankəndidə asdı. Ermənistan isə bütün bunların fonunda köç edən erməni əsillilərin problemləri ilə üz-üzə qalmış oldu. Odur ki, nəticə çıxara bilsələr görərlər ki, Ermənistan hansısa divident əldə etmək üçün nə qədər çabalayırsa, ermənilərə nə qədər dəstək barədə müzakirələr aparılırsa, həmin işğalçı ölkənin bir o qədər vəziyyəti ağırlaşır.

Dünya miqyasında tanınmış politoloqların, siyasətçilərin böyük əksəriyyəti belə hesab edirlər ki, Ermənistan tərəfi məsələnin məntiqi şəkildə həlli barədə düşünmək, razılığa gəlmək əvəzinə, beynəlxalq qurumlara şikayətlənməyi üstün tutur və bunu doğru hesab edirlər, halbuki, bundan başqa yol tapmaqda aciz olduqları bununla bir daha öz təsdiqini tapır. Məsələ burasındadır ki, rəsmi İrəvan bu şəkildə şikayətlənməklə hələ bircə məsələdə diplomatik uğur qazana bilməyib və kağız üzərində qalacaq müzakirələr də, qərarlar da, qətnamələr də həmin ölkə üçün təskinlikdən başqa bir şey deyil. Həm də heç bir təsir gücünə malik olmayan müzakirələr elə məhz təsirsiz olduğuna görə, əsassız olduğuna görə sadəcə, qeybətə bənzəyir. Dəfələrlə hansısa platformalarda müzakirələrə can atan ermənilər həmin müzakirələrdən sonra nə isə əldə edə bilmədiklərini, əksinə, Azərbaycanın geri çəkilmədiyini, daha da irəlilədiyini görmələri fonunda yenə də əsassız şəkildə qeybət xarakterli müzakirələrdən əl çəkmirlərsə, deməli, hələ də məsələyə qərəzli şəkildə yanaşırlar və qətiyyən sülh haqqında düşünmürlər. Bu, elə həmin o ermənilərə dəstək verən, onların əsassız istəklərinə, arzularına qoşulanlara, mifik xəyallarına alət olanlara da aiddir və məhz Ermənistan parlamentinin nümayəndə heyətinin Bundestaqdakı həmkarları kimi, Azərbaycana qarşı beləcə əsassız şəkildə müzakirə aparan digərlərinin də ölkəmizə qarşı qərəzli olduğu ortaya çıxır.

***İnam Hacıyev***

# Əli Kərimli və Tofiq Yaqublu düşmən mövqeyində dayanmağa üstünlük verirlər

Vətənin hər bir qarışı doğmadır, əzizdir. Kimsə Vətəninə fərqli prizmadan baxırsa və haqqında ziddiyyətli fikirlər söyləyirsə, deməli, onun qanında düşmənin maraqlarına cavab verən elementlər var. Yəni, heç bir halda nədənsə və kimdənsə narazı qalmağından asılı olmayaraq dövlətin və xalqın haqqında yanlış mövqe sərgiləmək olmaz. Böyük şairimiz Abbas Səhhət nə gözəl deyib: "Vətəni sevməyən insan olmaz, olsa ol şəxsdə vicdan olmaz". Təəssüflər olsun ki, Azərbaycan siyasi arenasında dövlətçiliyə qarşı bəzi müxalif ünsürlərin qərəzli mövqeləri onu deməyə əsas verir ki, aramızda vətəninə qarşı vicdansızlıq



edənlər var. Hansı ki, bu şəxslər xarici maraqlı dairələrin ayırdıqları qəpik-quruşa aldanıb Azərbaycan dövlətinin imicinə xələl gətirməyə çalışır, xalqın heysiyyatına toxunan açıqlamalar verirlər. Elə məqamlar olur ki, dağıdıcı müxalif partiya funksionerləri açıq şəkildə erməni revanşistləri kimi fikirlər yürüdürlər. Bu halda onların azərbaycanlı olmalarına şübhələr yaranır. Düşünürsən ki, Azərbaycanın Qarabağda öz suverenliyini bərpa etdiyi halda necə ola bilər ki, özlərini azərbaycanlı kimi təqdim edən şəxslər birbaşa erməni dığaları kimi açıqlamalar verərlər.

### Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri müstəqil olmadıqlarından qara fikirlərini və niyyətlərini dayandırmaq fikrində deyillər

Əli Kərimli deyir ki, "Rusiya sülhməramlıları Qarabağdan çıxmadıqları üçün qələbəmiz yarımçıqdır". Bu məxluq anlamır ki, dünənə qədər televiziyalardan, sosial şəbəkələrdən Qarabağımızı seyr etdiyimiz halda, bu gün biz Xankəndidəyik, Xocalıdayıq, Ağdərədəyik və digər 30 il işğal altında olmuş ərazilərdəyik, hər yerdə üçrəngli bayrağımız dalğalanır. Heç bir hərəkətimizə və fəaliyyətimizə heç bir qüvvə, o cümlədən, rus sülhməramlıları mane ola bilmir və təbii ki, ola bilməzlər də. Vaxtı çatanda onlar da bölgəni tərk edəcəklər. Zamanında Qəbələ RLS-də də rus hərbi qüvvələri vardı, sonradan onlar ərazini tərk etdilər. Eləcə də Xankəndi ətrafından da rus sülhməramlıları gedəcəkləri şübhəsizdir. Sadəcə, gözləmək və Prezidentimizin atacağı addımları və verəcəyi qərarları izləmək lazımdır. Dəstək göstərmək, yardımçı olmaq qabiliyyətindən uzaqsınız, heç olmasa susun, danışmayın. Görünən isə ondan ibarətdir ki, Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri müstəqil olmadıqlarından qara fikirlərini və niyyətlərini dayandırmaq fikrində deyillər, əksinə, daha böyük həvəslə anormal fəaliyyətlərini davam etdirirlər.

Hətta arada bir fars-molla rejiminin əmməməli mollalarının və revanşist ermənilərin istəklərinə uyğun ifadələr də səsləndirirlər. Milli Şuranın zədəli üzvü T.Yaqublu sayıqlayır ki, Zəngəzur dəhlizi açılmamalıdır. Bu yerdə 2023-cü il iyunun 14-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Zəngəzur dəhlizinin açılmasına əngəlləməyə çalışan qüvvələrin adını çəkməsi düşdü. Erməni nazir olanları dilə gətirərək bildirir ki, fars-molla rejimi Zəngəzur dəhlizinin açılmasına mane olmağa çalışır: "Zəngəzur dəhlizinin açılmasına Ermənistan deyil, İran mane olur".

### T.Yaqublu üçün əxlaq, mənəviyyat deyilən anlayış yoxdur

T.Yaqublunun Zəngəzur dəhlizi ilə bağlı separatçı fikirlər söyləməsi onu deməyə əsas verir ki, bu məxluq özünün deyil, fars-molla rejiminin istəklərini dilə gətirir. Təbii ki, qarşılığında maliyyə vəsaiti əldə edir. Ümumiyyətlə, faktlara əsaslansaq məlum olur ki, T.Yaqublu üçün əxlaq, mənəviyyat deyilən anlayış yoxdur. Məqsədi və hədəfi ancaq pul əldə etməkdir. Bu istəyini reallaşdırmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə edir. Onun üçün fərqi yoxdur kimin qucağında və nəyin üstündə oturur. Dünən gözünü Avropanın fondlarına dikmişdirsə, bu gün cibini fars-molla rejiminə açır. Bu üzdəniraq məxluq hər yerə başını soxmağa çalışır. Gah fars-molla rejiminin, gah erməni revanşistlərin maraqlarından, gah da Qərbin doymuş məhlullarının istək və arzularına uyğun mövqe ifadə edir. Müəyyən məqamlarda dünən hörmətsizlik edib, tənqid etdiyi rəqiblərini, bu gün göstərişlərə əsasən xoş sözlər söyləyir. Misal üçün yada salmaq lazımdır ki, 2014-cü ildə Müsavatın rüsvayçı qurultayından sonra Qubad İbadoğlu başının dəstəsi ilə partiyanı tərk etdiyi zaman T.Yaqublu bir növ Q.İbadoğlunu tənqid və təhqir edənlərin sırasında ön cərgədə durmuşdu. Elə ki, Q.İbadoğlu Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunaraq Nərimanov rayon Məhkəməsinin qərarı ilə barəsində 3 ay 26 gün müddətinə həbs qətimkan tədbiri seçildi T.Yaqublu mövqeyini sifarişlərə əsasən dəyişib başladı keçmiş rəqibini müdafiə etməyə.

Halbuki, Q.İbadoğlunun qardaşı, deputat Vüqar Bayramov bildirib ki, araşdırmalar obyektiv aparılacaq və hüquqi dövlət prinsiplərinə uyğun ədalətli qərar qəbul ediləcək. V.Bayramov qardaşının həbsi üzərindən siyasi dividend qazanmağa çalışanları da ittiham edib. Bildirib ki, cəmiyyətdə ciddi qəbul olunmayan bir sıra fiqurlar və xəbər portalları tərəfindən yayılan spekulyativ açıqlamalar, sadəcə, təəssüf doğurur. Söz yox ki, V.Bayramov "ciddi qəbul olunmayan bir sıra fiqurlar" deyərkən T.Yaqublunu, Ə.Kərimlini və digər boşboğazları nəzərdə tutur. Həmin boşboğazlar isə ətəklərində daşları yerə atmaq fikrində deyillər. Çünki xaricdəki ağaları əks halda onları tənbeh edər və ciblərini boş qoyar. Bu baxımdan hələ ki, deyingən qarı kimi deyinirlər. Lakin bu deyinməyin də bir gün sonu olacaq və onlar da Q.İbadoğlu kimi ədalət məhkəməsi qarşısına çıxarılaraq etdikləri bəd əməllərə görə layiqli cəzalarını alacaqlar.

**İ.ƏLİYEV**



## FELYETON

### Əli Kərimli: "neynim-neynim"...

Aşığın sözü qurtaranda "neynim, neynim" edib, məclisi yola verdiyini görmüşdük. Sən demə, siyasətdə də neynim-neynim varmış ey. Əli Kərimli bu günlər elə bir "neynim, neynim"dəydi ki, güldük, güldük, elə güldük ki, uğunub getdik.

Xankəndinə, Xocalıya, Xocavəndə, Ağdərəyə... bayraq sancılandan yoxuydu "bəy". Dedik yəqin utandığından qısılıb bir kənara. Yəqin deyib: "ta nə deyim axı?". Nə deyirəmsə, ağzımın üstündən vurub oturdurlar yerimə; üç il əvvəl müharibə oldu. Elə bir söz axtarırdım danışmağa, Laçın, Kəlbəcər, Ağdam məsələsi çıxdı meydana. O qədər sevindim, o qədər sevindim ki, az qaldı ürəyim partlasın. Dedim, nə yaxşı oldu. Danışmağa söz taparam. Bir az danışmışdım ki, Laçını da, Kəlbəcəri də, Ağdamı da erməni başına daş düşmüş qoyub aftafasını, unutazını götürüb getdi. Dedim yaxşı, bəs mən indi nə danışacağam?

Bu arada axı bir söz lazım idi ki, danışam. Nə olur olsun ey, söz olsun. Axı söz yoxdursa, gündəm də yoxdur. Hər şey gedib ey, qalan bir sözdür. Yəni bir çürük sözü də danışmayım, nə edim bəs?

Sonra ermənilərlə azərbaycanlılar arasında keçid məntəqəsi yaradıldı. "Bəy" buna çox narahat oldu. Dedi ki, bəs yazıq ermənilər orada acından-susuzdan öləcəklər. Ancaq gərək narahat olmayaydı, bu məntəqə silah-sursat üçün qoyulmuşdu, ərzaq üçün yox. Bunu "bəy" biləndə isə artıq ermənilər özləri öz xoşları ilə getməyi məsləhət bildilər. Buna da "bəy" çox məyus oldu. Bir xeyli də bundan danışdı. Lakin onlar artıq getmişdilər.

Sonra nə danışacaqdı ki, bəs? Başladı Xankəndidən, Xocalıdan, Ağdərədən, Xocavənddən tutub buraxmamağa. "Yarımçıq müharibə" adlı mövzunu saldı çənələrinə. Lakin bu dəfə söz elə çənəsindəcə qaldı. Bayraqlarımız bir-bir həmin torpaqlarda ucaldıldı.

Nə məsələ idi, deyə bilmərəm, bu hadisədən sonra Əli "bəy" düz 3 gün susdu, səssizliyə qapıdı. Dedik, yəqin utandığından belə edir. Danışdıqlarına görə xalqın qarşısında özünü günahkar hesab edir. Sən demə yox, belə deyilmiş. Əli "bəy" yeni mövzu üzərində işləyirmiş. Danışmağa söz axtarırmış. Belə də oldu. Üç gündən sonra ortalığa çıxdı və yeni mövzunu gündəmə gətirdi: niyə bu müharibə 30 ilin əvvəlində deyil, axırında oldu. Və sair və ilaxır...

Bu dəfə dedik ki, hə... Deməli, siyasətdə də "neynim, neynim" məsələsi varmış. "Bəy" günlərdir ki, "neynim, neynim"dədir. Lakin bunun üçün əlverişli vaxt seçibmi? Yox. Gərək sükuta qərq olduğu o 3 günü ən azından bir 6-7 gün edərdi. Çünki bu saat hamı toy-bayramdadır. Əli "bəy"ə bircə nəfərin də qulaq asmağa nə vaxtı, nə də əhvalı var.

Bizə də Molla əmi dedi, yoxsa əsla xəbərimiz olmayacaqdı. Molla əmi Qarabağı eşidib, o dünyadan qalxıb bizi təbrikə gələndə Əli "bəy"lə yol yoldaşı olubmuş. Deyir, ordan bura "neynim, neynim" elədi. Mən də cəmi bir kəlməsinə cavab verdim ki, 30 il əvvəl acından öldüyün günləri xatırlayırsan, necə müharibə edəcəkdin?

**Mətanət Məmmədova**

# "Uşaqlar qida boyası istifadə olunmuş məhsullardan uzaq durmalıdır"

## MÜTƏXƏSSİS İZAH ETDİ

"Boyalar həm qidanın qablaşdırmasında istifadə olunan, həm də qidalara süni rəng verən kimyəvi maddələrdir. İlk süni qida boyaları kömür qətranında əldə edilmişdir. Hal-hazırda isə neftdən əldə edilən bu boyalar şəkərləmələrdə, idmançı içkilərində, un məmulatlarında, souslarda, konfetlərdə, konfetlərin kağızında və daha çox qidanın tərkibində istifadə olunur". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə mütəxəssis Asim Vəliyev deyib.

Onun sözlərinə görə, Amerika Qida və Dərman Dairəsi (FDA) və Avropa Birliyi Qida Təhlükəsizliyi Agentliyi (EFSA) kimi beynəlxalq qurumlar boyaların sağlamlıq baxımından heç bir risk daşımadığını desə də, bu mövzuda fikir ayrılıqları mövcuddur: "Bir çox ölkələrdə bəzi qida boyaları qadağan edilərkən, bəzi ölkələrdə istifadəsinə icazə verilir.

Amerika Qida və Dərman Dairəsi (FDA) və Avropa Birliyi Qida Təhlükəsizliyi Agentliyi EFSA tərəfindən istifadəsinə icazə verilən bir sıra qida boyalarını misal göstərə bilərik. Qırmızı No 3 - şəkər və tort bəzəmə gellərində



geniş istifadə olunur. Red No 40 - idmançı içkilərində, şəkərləmələrdə və taxıl lopalarında istifadə olunan tünd qırmızı rəngli boyadır. Sarı No 5 - içkilərdə, şəkər, çipsi, partladılmış qarğıdalı və taxıllarda istifadə olunan limon sarısı rəngli bir boyadır. Sarı No 6 - souslarda, un məmulatlarında, konservləşdirilmiş meyvələrdə istifadə olunan narıncı-sarı rəngli bir boyadır. Blue No 1 - dondurma, paketlənmiş suplar, kremlərdə istifadə olunan yaşılvari mavi rəngli bir boyadır. Blue No 2 - şəkər, taxıl lopaları və bəzi atışdırmalıq qidalarda istifadə olunan mavi rəngli bir boyadır. Red 40, sarı 5 və sarı 6, Amerikada istifadə olunan qida boyalarının 90%-ni təşkil edir. Green No 3 FDA tərəfindən icazə verilən, ancaq Avropada qadağan edilmiş bir boyadır. Ponceau, Avropa Birliyində icazə verilən, ancaq Amerikada qadağan edilmiş boyalardandır".

Mütəxəssis sözlərinə davam edərək bildirib ki, bəzi müstəqil araşdırmalar qida qablaşdırmasında və qidalarda istifadə oluna qida boyalarının uşaqlarda hiperaktivliyi artırdığını ortaya çıxarır: "Ancaq hər uşağın orqanizmi bu boyalara eyni reaksiya vermir. Hiperaktivliyi olan uşaqların, digər uşaqlara nisbətən həsaslığı daha çoxdur. Blue 2 üzərində aparılan heyvan araşdırması yüksək dozada xərçəngə səbəb olduğunu ortaya qoyub. Ancaq bəzi araşdırmaçılar isə bunu demək üçün lazımi sübut olmadığını bildirir. Qırmızı 3 olaraq tanınan eritrosin ən mübahisəli boyadır. Nəticə olaraq deyə bilərik ki, qidalarda istifadə olunan qırmızı 40, mavi 1, sarı 5 və 6 nömrəli qida boyaları həssas insanlarda allergik reaksiyalara səbəb ola bilir. Xüsusilə uşaqların qida boyası istifadə olunmuş qidalardan uzaq durması lazımdır. Nəzərinizə çatdıraq ki, qida boyaları ilə bağlı aparılan araşdırmaların əksəriyyəti heyvanlar üzərində aparılan araşdırmalardır".

**Ləman Sərraf**

# ”Rusiyalı ekspert: ”Azərbaycan münaqişəni birdəfəlik həll etdi, Rusiya da onu dəstəklədi”

## Dmitri Solonnikov: NATO-nu öz ərazisində yerləşdirən kimi Ermənistan KTMT-ni tərk edəcək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*







Ermənistanın baş naziri Nikol Paşinyan MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçirilən iclasında iştirakdan imtina etməsi fonunda Qərbin aparıcı məkanlarına səfərdə fəallığını artırmaqda davam edir. Belə ki, oktyabrın əvvəlində İspaniyanın Qranada şəhərində keçirilən Avropa Siyasi Birliyinin sammitində Avropa Parlamentinin rəhbəri Roberta Metsola Ermənistan hökumətinin başçısını Avropa İttifaqının qanunverici orqanında çıxış etməyə dəvət edib. Dünən isə Paşinyan orada danışıb. Və bildirib ki, müttəfiqlər (Rusiyanı nəzərdə tutur) ölkədə hakimiyyət çevrilişi etməyə çalışıb, Azərbaycan Ermənistana ”hücum” edəndə, Qarabağda ermənilərə qarşı ”etnik təmizləmə” aparanda müttəfiqlərin heç bir köməyi olmayıb. Amma Paşinyanın qeyd etdiyi kimi, Ermənistan demokratik ölkədir və bu gün Aİ ilə təhlükəsizlik əlaqələrini gücləndirir və İrəvanın Qarabağ ermənilərinə ayırdığı böyük yardıma baxmayaraq, Avropa İttifaqından daha çox yardım gözləyir. Ümumiyyətlə, Ermənistan Avropa İttifaqı ilə inteqrasiyaya maksimum hazırdır.

Rusiyalı politoloq, Müasir Dövlət İnkişaf İnstitutunun direktoru Dmitri Solonnikov ”Moskva-Baku” portalına vəziyyəti təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Dmitri Vladimiroviç, İrəvanın anti-Rusiya hücumları artır... Dövlət çevrilişi təşkil etmək cəhdlərində ittihamlar - bu, artıq Amerikanın taktikasına bənzəyir...***

- Burada yeni heç nə yoxdur. Ermənistanın siyasəti hara getməyi məqsəd qoyubsa, oraya da gedir. Hər kəs nə baş verdiyini mükəmməl başa düşür. Dövlət çevrilişlərinə gəlincə, Paşinyan onların necə təşkil olunduğunu çox gözəl bilir. O, ABŞ-ın təşkil etdiyi dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlib. Ona görə də o, bu məsələdə mütəxəssisdir. İndi hər dəfə ətrafına baxanda ona elə gəlir ki, əgər o, dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlibsə, o da hardansa xaricdən təşkil olunmuş oxşar aksiyalar nəticəsində devrilməlidir. Hər kəs özü ilə ölçür. Əgər o özü çevrilişin himayədarıdırsa, o zaman hamı haqqında eyni fikirdə olacaq.

Paşinyanın Ermənistanı qərbyönlü etmək və onu Avrasiya münasibətlər vektorundan çıxarıb Qərbin xarici siyasət dövrəsinə keçirmək üçün hakimiyyətə gətirilməsi heç kimə sirr deyil. Və bu gün Paşinyanın Avropa Parlamentində Aİ ilə maksimum inteqrasiyaya hazır olması ilə bağlı bəyanatları və Rusiyaya ünvanlanan getdikcə daha qəribə bəyanatlar bunun təsdiqidir.

Azərbaycana zərbələr də İrəvanın siyasətində ardıcıldır. Elə bu günlərdə Avropa Parlamenti Qarabağdakı ”vəziyyət”ə görə növbəti dəfə dəfə anti-Azərbaycan qətnaməsi qəbul edərək Bakıya qarşı sanksiyaların tətbiqini tələb etdi. Qərb təbii ki, Cənubi Qafqaz trasında oynayır. Və əgər İrəvanın istifadə edildiyi anti-Rusiya gündəmini buraxsaq, burada da anti-Azərbaycan gündəmi görünür.

Paşinyan hakimiyyətə gəldikdən dərhal sonra açıq-aşkar qərbyönlü vektoru qəbul edə bilmədi, çünki Ermənistanda güclü rusiyapərəst əhval-ruhiyyə hökm sürürdü. Və ona bu beş il lazım idi ki, əhalinin fikrini anti-Rusiya mövqeyə çevirsin- sərt informasiya kampaniyası, xaricdə uydurulmuş dezinformasiya vasitəsilə. Qərbin hakimiyyətə gətirdiyi Ermənistanın baş naziri belə etdi- o, əvvəl Azərbaycanın mövqeyi, Rusiyanın mövqeyi ilə bağlı dezinformasiya yayırdı və sonra ona dedilər ki, məqam yetişib, o, hakimiyyətə gəlməlidir. Gətirildi, çünki Ermənistanı şərq konturlarından çıxarıb qərb konturlarına inteqrasiyasına başlamaq lazım idi.

Ermənistanda bütün bu qərbyönlü meyllər 2018-ci ildən etibarən tədricən artıb. Əgər Paşinyan dərhal desəydi ki, Rusiya onun üçün düşməndir, o, dərhal ”gedərdi”.

***- Vaxt yetişəndə Paşinyan öz ritorikasını gücləndirdi. Sifariş tamamlanmalı idi...***

- Düşünməyin ki, Ermənistanın baş naziri sadəcə olaraq Rusiyadan situasiya olaraq ”incidi” və qisas almaq və Qərblə mazaqlaşmaq qərarına gəldi- yox, belə bir şərh real deyil. Dediyim kimi, Paşinyan Soros Fondunun, USAİD-in pulları ilə təşkil edilmiş çevriliş nəticəsində hakimiyyətə gəlib, yeri gəlmişkən, onun rəhbəri Samanta Pauer bu yaxınlarda dövlət katibinin köməkçisi ilə birlikdə respublikaya gəlib və Paşinyana Baydendən məktub gətirib. Baş nazirin komandası bu strukturların keçmiş fəallarıdır, çoxlu ”Soros uşaqları” yetişdirmişlər, son nəticədə onlar respublikanın Rusiyadan ayrılması istiqamətində aktiv fəaliyyətlərə, postsovet məkanında dağıdıcı fəaliyyətlərə görə ”döyüş qanadı” kimi regiona göndərilmişlər. Qərb onları öyrətdi, hazırladı. Soros Fondunun və ya USAİD-in ölkələrdə sabitliyi pozmaqdan və ölkələri Qərbə tabe etməkdən başqa bir iş gördüyünə kiminsə inamı varmı? Bunu düşünmək gülməli olardı.

***- Ermənistanın baş naziri Aİ ilə maksimum inteqrasiyaya hazır olmasından danışır. Aİ hazırdırmı? Yoxsa Ukrayna, Moldova, Gürcüstandakı kimi olacaq sizi qanadları altına alacaqlar, amma içəri buraxmayacaqlar?***

- Təxminən. Ermənistanın bir ayağı hələ də rusiyayönlü strukturlardadır. Əgər o, onları- KTMT-ni, AİI-ni tərk edərsə və eyni zamanda Qərb strukturlarında ona hansısa şəkildə kömək edəcək bir status almazsa, bu, onun üçün tam çöküş olacaq.

Ermənistan Rusiya və digər müştərək strukturların dövlətləri ilə inteqrasiya əlaqələri saxlayır, ucuz elektrik enerjisi və ucuz qaz alır, AİI daxilində böyük satış bazarına malikdir və böyük investisiyalar alır.

Son vaxtlar inteqrasiyadan kimin daha çox faydalandığını təhlil etsək- təbii ki, bu Ermənistandır.

Əgər Paşinyan Qərbə gedərək bu münasibətləri pozarsa, Ukraynada olduğu kimi, onun da iqtisadi deqradasiyası başlayacaq, bir müddətdən sonra məlum olacaq ki, belə bir iqtisadiyyata xüsusi ehtiyac yoxdur.

Qərb artıq Ermənistanın ”təhlükəsizliyini təmin etməyə” hazırdır. Hətta kiçik bir ölkənin bazarına silah tədarükü cəlbedicidir, Ermənistanın Rusiya silahlarından imtina etməsi və NATO formatına keçməsi, ordunun NATO qaydasında tamamilə yenidən silahlanması Qərb üçün də lazımdır.

Ermənistan artıq rəsmi şəkildə bəyan edib ki, Rusiya və KTMT-nin əvəzinə təhlükəsizlik üçün yeni tərəfdaşlar axtarır. Və o, bunun üçün Fransa və Aİ-ni ”tapdı”. Paris respublikanı silahla təmin etmək niyyətindədir. Paşinyanın bugünkü bəyanatlarına görə, Aİ ilə təhlükəsizlik sahəsində əməkdaşlıq artıq davam edir- bu, Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində ”mülki” monitorinq missiyasıdır.

Əgər Ermənistan ətrafında gedən proseslərin uzunmüddətli perspektivindən danışsaq, aydındır ki, sabah respublika heç bir Qərb inteqrasiya birliyinə daxil ola bilməyəcək. Hələ 15-20 ildən sonra dünyanın necə olacağını görməliyik.

***- Amma Paşinyan bu yaxınlarda bəyan etdi ki, Ermənistan KTMT-dən çıxmaq fikrində deyil və Rusiya bazası ilə bağlı hər şey əvvəlki razılaşmalar çərçivəsində qalır...***

- Çünki birdən-birə özünü heç nəsiz qoymaq onun üçün qorxuludur. O, NATO ilə alyansın Ermənistan ərazisində olması ilə bağlı razılaşma əldə etdikdən iki saat sonra KTMT-ni tərk edəcək. Ermənistan, üzərində ”müdafiə çətiri” olmadan mövcud ola bilməz.

***- Eyni zamanda, Paşinyan bir daha bəyan edir ki, İrəvan ilin sonuna qədər Azərbaycanla sülh imzalaya bilər, delimitasiyaya hazırdır...***

- Onun vəzifəsi Avropa İttifaqının, Fransanın və ABŞ-ın himayəsi altında Rusiyasız danışıqlar aparmaqdır. Onun vəzifəsi onları Cənubi Qafqazdakı məsələlərin həlli üçün əsas moderator etmək, mümkün qədər uzun müddətlik bura gətirmək, Rusiyanı buradan sıxışdıraraq regionda Qərbin daimi mövcudluğunu təmin etməkdir. O, Azərbaycanla, Rusiyasız, Qərb vasitəsilə sülh müqaviləsi imzalamağa hazırdır. Digər sual isə budur: Azərbaycan buna razı olacaqmı?

***- Bişkekdə keçirilən MDB sammitində Əliyevlə Putinin görüşü, Paşinyanın iştirak etməməsi və ondan sonra Azərbaycan prezidentinin Xankəndidəki çıxışı bir çoxlarına 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya və Azərbaycan arasında baş verən prosesləri xatırlatdı. Liderlər efirdə tarixi üçtərəfli bəyanat imzaladılar. Onda Paşinyan da yox idi...***

- Paşinyan özü şüurlu və bilərəkdən MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçiriləcək iclasına getməkdən imtina etdi. Baxmayaraq ki, əslində onun gəlməsinə heç nə mane olmurdu. Bir növ ”çətin vəziyyət”, Qarabağ erməniləri ətrafında vəziyyətə istinadlar bəhanədir. Qarabağ erməniləri ətrafındakı ”vəziyyət” onun Qərb paytaxtlarına davamlı səyahətinə mane olmur. Bu onun seçimidir.

O, postsovet məkanında kommunikasiya, Avrasiya inteqrasiyası ilə maraqlanmır, Qərb dünyasına inteqrasiyada maraqlıdır.

İnanıram ki, Əliyev nəzakət baxımından Xankəndində Putinlə görüşmək niyyətini ifadə edib. Baxmayaraq ki, Azərbaycan müstəqil ölkədir və öz ərazisində tədbirlərin keçirilməsinə razılıq verməyə borclu deyil. Amma Putinlə Əliyevin əla münasibətləri var, biz müttəfiqik, ona görə də düşünürəm ki, Azərbaycan lideri öz planlarını açıqlayıb. Və bəli, 2020-ci ildə vəziyyət təkrarlanır deyəsən...

Obyektiv olaraq, bütün Cənubi Qafqazda sağlam təmaslar, sağlam inteqrasiya, Ermənistanla konstruktiv qarşılıqlı fəaliyyət, Zəngəzur dəhlizinin açılması Rusiya və Azərbaycan üçün yaxşı olardı. Moskva və Bakı bu gün Moskva və İrəvandan daha konstruktiv qarşılıqlı faydalı tərəfdaşlardır. Eyni zamanda, Rusiya Ermənistanın ayrılmasının qarşısını almağa çalışır.

Mənə elə gəlir ki, bu mühüm məqamdır: Qərb həmişə müxtəlif beynəlxalq münaqişələri dalana dirəməyə çalışır. Problem qapanmalıdır, amma Qərb problemi sonsuz olaraq davam etdirməyə çalışır. Mark Zaxarovun Şvartsın əsəri əsasında çəkdiyi ”Adi möcüzə” adlı gözəl filmi var, orada baş qəhrəman bu ifadəni deyir: ”Hər bir hekayənin sonu olmalıdır- axmaqcasına, faciəli və qəhrəmancasına”. Söhbət bundan gedir: istənilən ziddiyyət sona çatmalıdır, əbədi qalmamalıdır, ona bir formada son qoyulmalıdır. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, münaqişədə son nöqtənin qoyulması çox vacibdir, İlham Əliyev Xankəndində bunun necə ola biləcəyini göstərdi. Bu vacibdir. Bu, müasir dünya tarixində unikal hadisədir. Rusiya isə Azərbaycanı dəstəklədi.

Qərb bu gün özünü Ermənistan-Azərbaycan probleminin bir tərəfində- Ermənistanla yanaşı yerləşdirməyə çalışır, digər tərəfdə isə Azərbaycan və Rusiya qalır. Qərb öz sevimli taktikasından istifadə etməkdə davam edir- kim bizimlə deyilsə, bizə qarşıdır. Putin MDB sammitində yenə bəyan etdi ki, Qərb Rusiyanı dostlarına, müttəfiqlərinə və tərəfdaşlarına qarşı qoymağa çalışır. Bizim gördüyümüz budur.

***Tərcümə - Elçin Bayramlı***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Boşanmaq qərarına birinci kim gəlir - qadın, yoxsa kişi?

*AYDINLIQ GƏTİRİLDİ*

Azərbaycan ailələrində boşanmaq qərarına birinci kim gəlir - qadın, yoxsa kişi? SİA mövzu ilə bağlı araşdırma apararkən məlum olub ki, 55 faizi qadın, 45 faizi kişi olmaqla, 19-50 yaş arasında olan 120 respondent arasında aparılmış tədqiqat zamanı məlum olub ki, respondentlərin çoxu - 24,6 faizi evləndikdən iki il sonra, 23 faizi evliliyin ilk 6-12 ayında, 21,3 faizi evləndikdən 7-9 il sonra boşanma qərarına gəlib. Tədqiqatlar nəticəsində boşanma qərarının daha çox qadınlar tərəfindən verildiyi məlum olub.





Sosioloq Əbülfəz Süleymanlı mövzu barədə bildirib ki, istər nikahların bağlanması, istərsə də pozulmasına insanların yaşadıqları dövr, həmin dövrün siyasi, iqtisadi, mənəvi-psixoloji amilləri böyük təsir edir: "Evlilik həyatının uğurunu və uğursuzluğunu səciyyələndirən amillərdən bir də evlilik illəridir".

Onun sözlərinə görə, elmi ədəbiyyatda bütün ölkələr üzrə ailə həyatı üçün dörd dövr təhlükəli hesab olunur: "Bunlardan birincisi nikahdan sonrakı ilk aylar, yəni bal ayının sonları, ikincisi, qeyri-sabit olan ailə həyatının üçüncü ilinin sonudur. Ailə həyatı üçün üçüncü təhlükəli dövr problemsiz və monoton keçən 7-ci ilin sonunda, sonuncusu isə evliliyin kifayət qədər inkişaf etmiş bir dövründə - 15-ci ilə təsadüf edir. Hər altı cütlükdən biri bu dövrlərdə ailə problemi ilə üzləşirlər. Tədqiqatın nəticələri zamanı da bu fərziyyənin özünü doğrultduğu görünür. İnsanların 36,1 faizi məhz evliliyin ilk üç ilində, 21,3 faizi isə 10-12 ilində nikahlarını pozurlar".

Ə.Süleymanlı vurğulayıb ki, boşanmış cütlüklərin təhsil fərqləri də olur: "Boşanmış qadınların keçmiş həyat yoldaşları arasında ali təhsillilərin sayı daha çoxdur. Ər-arvadın təhsil fərqi istər-istəməz bu amilin sonrakı dövrdə anlaşmazlıq bir səbəbi kimi ortaya çıxma ehtimalını gücləndirir. Boşananlar arasında Bakıda doğulanların sayı çoxluq təşkil edir. Bu isə onu göstərir ki, şəhər mühitində böyüyən insanların problemlərə dözümlülüyü nisbətən zəif olur. Eyni zamanda, şəhərdə əyalətlərlə müqayisədə ictimai nəzarətin zəif, stress hallarının yüksək olması və işləyən qadınların sayının daha çox olması boşanmaya səbəb olan amillər sırasındadır".

***Ləman Sərraf***

# Tənhalıq qorxusu barədə bilmədiklərimiz...

*PSİXOLOQ AÇIQLADI*



"Tənhalıq insanın yanında kimsənin olmamasıdır. Bu, öz hisslərini, düşüncələrini bölüşməyə və zamanını keçirməyə imkanın olmaması səbəbindən yaranan bir təəssüratdır". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Dövlət Pedaqoji Universitetin müəllimi, psixoloq, pedaqoq Günel Allahverdiyeva deyib.

Onun sözlərinə görə, bu hiss insanda yüksək həyəcan, sıxılma və ya hər hansı bir qrupa mənsub olmama kimi hisslərlə özünü büruzə verir: "Bəzən də şəxs başqa insanların əhatəsində olduqda belə tənhalıq hissi keçirir, öz daxili aləminə çəkilir və daha çox fikirləşmək istəyirlər".

Günel Allahverdiyeva sözlərinə belə davam edib: "Psixologiyada tənhalığın 3 tipini fərqləndirirlər. Bunlardan biri xroniki tənhalıqdır. Xroniki tənhalıq, əsasən, insanın uzun müddət başqa insanlarla ünsiyyət yarada bilməməyin nəticəsində yaranır. Digər tənhalıq situativ tənhalıqdır ki, bu daha çox insanın öz yaxın və əziz adamını itirdiyi zaman keçirdiyi stress nəticəsində meydana gəlir. Bu da insanın sosial ünsiyyət modelinin dağılmasına səbəb olur.

Tənhalığın digər bir növü isə keçici tənhalıqdır. Bu insanlar arasında daha çox rast gəlinən tənhalıq növüdür. Bu tənhalıq təsadüfi, heç bir səbəb olmadan özünü göstərir və keçici olur. Tənhalıq hissi keçirən insanlar ciddi ünsiyyət çatışmazlığı yaşayırlar. Onlar həm özlərini, həm də ətrafda olan insanları neqativ qiymətləndirirlər. Onlar daha çox tək qalmaqdan qorxurlar.

İnsanlar tənhalıq qorxusunu dəf etmək üçün, ilk növbədə, insan özü-özü ilə xoşbəxt olmağı öyrənməlidir və daha sonra isə sosial olmağa, başqaları ilə ünsiyyət qurmağa çalışmalı, günün çox hissəsini bu şəkildə keçirməlidir".

***Ayşən Vəli***

# DİQQƏT: Wi-Fi şəbəkə sistemi ləğv olunur?



"Ölkədə kibergigiyena, yəni ümumi minimal təhlükəsizlik qaydaları istifadəçilər arasında geniş təbliğ olunmalıdır. Kibergigiyena daxilində ümumi şəbəkələrdən istifadənin məhdudlaşdırılması məsələsi çox mühüm hallardan biri olmalıdır. Restoranlar, kafelər, ümumilikdə ictimai yerlərdə olan pulsuz Wi-Fi şəbəkələrinə qoşulub istifadə etmək təhlükəlidir. Sadə insanlar həmin şəbəkəyə necə qoşulursa, hakerlər də o şəkildə şəbəkəyə qoşularaq asanlıqla telefon və ya digər elektron cihazınıza daxil ola, öz mənfur işlərini görə bilər. Mən ictimai yerlərdə olan ümumi internet şəbəkələrindən istifadə etmirəm. Çünki ümumi internet şəbəkələrindən yaranan təhlükə çox vacib məsələlərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında "Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu"nun icraçı dirketoru Fərid Kazımov deyib.

Onun sözlərinə görə, bunun qarşısını almaq üçün sadəcə olaraq ümumi şəbəkələrdən istifadə məsələsini məhdudlaşdırmaq lazımdır: "Əlbəttə düşünə bilərsiniz ki, mobil internet paketləri heç də ucuz deyil. İctimai iaşə obyektlərində ya ucuz, o cümlədən, pulsuz internetdən, ya da daha artıq pul xərcləyərək öz təhlükəsizliyini təmin etmək məqsədilə mobil internetdən istifadə etməlidirlər". F.Kazımov sözlərinə davam edərək bildirib ki, ikinci bir vacib məsələ insanların evdə quraşdırdıqları Wi-Fi şəbəkəsinə çox bəsit şifrələr qoymasıdır: "Bu şifrələri qırmaq da hakerlər üçün çox çətin olmur. Bu nöqteyi-nəzərdən şifrələr daha mürəkkəb olmalıdır. Yaxşı olardı ki, insanlar Wi-Fi şəbəkələrinin şifrələrini mütəmadi olaraq dəyişdirsinlər. Hətta məsləhət görərdim ki, istifadə edilən poçtların, sosial şəbəkələrin şifrəsi də mütəmadi olaraq dəyişdirilsin. İnsanlar başa düşməlidir ki, hakerlərin virtual şəkildə onların resurslarına daxil olub nəsə əldə etməsi, evlərinə daxil olub oğurluq etməsindən daha asandır".

***Ləman Sərraf***


## ELAN

Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 07.11.2023-cü il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**